

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Milli Qurtuluş tariximiz: Bir Heydər Əliyev əsəri



15


№ 104 (6787)

SƏS

14 iyun 2023-cü il.
Qiymәti 60 qәpik


# Qardaş səfəri!

*Azərbaycan-Türkiyə: yeni hədəflərə birgə addımlarla*



2

# İrəvanın oynadığı İKİLİ OYUNLAR



5

## ABŞ-ın NED təşkilatı siyasi avantüra mərkəzinə çevrilib



8

## "Son zəng" çalındı



6

## Atraksionların təhlükəsizliyinə kim cavabdehdir?



13



## Nikahlar azalır, boşanmalar artır: SƏBƏB?

16

## Ərəblərdən Lukakoya 50 milyon avroluq təklif!



16

# Qardaş səfəri!

## Azərbaycan-Türkiyə: yeni hədəflərə birgə addımlarla

***Regionun gələcəyini müəyyənləşdirən Türkiyə və Azərbaycan birliyinin yeni istiqamətlər üzrə inkişafı bu gün dünyanın diqqət mərkəzindədir. Müttəfiqlik nümunəsi göstərən, yeni geosiyasi və geoiqtisadi münasibətlərin başlanğıcını qoyan Azərbaycan və Türkiyə yeni hədəflərə birgə addımlayır. Bu gün Azərbaycan-Türkiyə əlaqələri indiyə qədər tarixdə rast gəlinməyən və indinin özündə də başqa ölkələrin nümunəsində görünməyən bir mərhələyə çatıb. Tarixi qardaşlıq əlaqələrinin sürətli inkişafında, yeni və ən üst səviyyəyə daşınmasında prezidentlər - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın əsl dostluq, qardaşlıq münasibətlərinin rolu danılmazdır.***



Türkiyənin 13-cü Prezidenti seçilən Rəcəb Tayyib Ərdoğanın ilk səfərini Azərbaycana gerçəkləşdirdi. Bu, ilk növbədə iki qardaş ölkə arasında münasibətlərin ən yüksək səviyyədə olmasının məntiqi nəticəsidir. Qardaş ölkənin rəhbərinin bu səfəri onun növbəti prezidentliyi dönəmində Azərbaycan-Türkiyə əlaqələrinin daha sıx, daha davamlı edəcəyinə əyani sübutdur. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında səmimi münasibətlərin dövlətlərarası əlaqələrə bir daha töhfələr verəcəyi heç kimdə şübhə doğurmur.



Türkiyə Prezidentinin Azərbaycana gəlişi Dövlət səfəridir ki, bununda üzərində dayanmağa ehtiyac var. Qeyd olunmalıdır ki, ölkələr arasında həyata keçirilən səfərlərin təsnifatında Dövlət səfərləri xüsusi əhəmiyyət daşıyır. Bu səfərlər xüsusi protokol qaydaları ilə, diplomatik mərasimlərlə müşayiət olunur. Burada əsas məqsəd dövlətlərarası münasibətlərin ən yüksək, ən ali səviyyəsini nümayiş etdirməkdir. Dünyada Azərbaycan və Türkiyənin timsalında elə ölkələr, xalqlar tapmaq mümkün deyil ki, bu şəkildə birlik, həmrəylik sərgiləsin, bir yumruğa çevrilsin.

### Bir olmaq, birlik olmaq...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü keçirilib. Türkiyə Prezidentini salamlayan Azərbaycan Prezidenti türkiyəli həmkarının prezident seçkilərindən qısa müddət sonra Azərbaycana səfər etməsini xüsusi vurğulayıb və onu qələbə münasibətilə bir daha təbrik edib: "Sizə yeni uğurlar arzulayıram. Əminəm ki, növbəti illərdə də bizim dostluğumuz, qardaşlığımız hər zaman olduğu kimi yüksək səviyyədə olacaqdır".

Prezident əlavə edib ki, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı - bu, beynəlxalq amildir, sabitlik, inkişaf və təhlükəsizlik amilidir: "Prezident seçkilərində türk xalqının Sizə göstərdiyi inam bir daha Sizin uzun illər ərzində Türkiyə xalqına göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir. Siz bilirsiniz ki, Sizi Azərbaycanda çox sevirlər. Siz bizim əziz qonağımızsınız. Mən yeni hökumət üzvlərini də ürəkdən təbrik etmək istəyirəm. Bir çoxlarını tanıyıram. Dünən artıq bizim nazirlər və digər yüksək səviyyəli rəsmilər bir arada olmuşlar, bu gün də bu təmaslar davam edir. Hər zaman olduğu kimi, bizim görüşlərimiz həm görülən işlərə yekun vurur, eyni zamanda, növbəti illərdə görüləcək işlərlə bağlı yol xəritəsi cızır. Əminəm ki, bu səfərdə də belə olacaq. Bir daha xoş gəlmisiniz".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə heyət adından hər kəsi salamlayıb, qeyd edib ki, Millətimizin iradəsi ilə yenidən prezident seçildikdən sonra hər zamankı adətimiz üzrə əvvəlcə Şimali Kipri ziyarət etdik, sonra da dərhal Bakıya gələrək Sizinlə bir arada olduq: "Göstərdiyiniz qonaqpərvərliyə görə şəxsən öz adımdan və heyətim adından səmimi təşəkkürlərimi xüsusilə ifadə edirəm. Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qıbtə ilə izlənilir. Bunun son örnəyini Türkiyədə baş verən zəlzələ fəlakəti zamanı gördük. Azərbaycan hökuməti və xalqı dərdimizi öz dərdi kimi bölüşdü və dərhal zəlzələ bölgəsinə heyət göndərdilər. Ürəyi bizimlə döyünən hər bir Azərbaycan vətəndaşına yenə şəxsən öz adımdan və millətim adından minnətdaram".

Şuşa Bəyannaməsindən danışan Türkiyə Prezidenti xüsusi vurğulayıb ki, müttəfiqlik səviyyəsinə yüksəltdiyimiz əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq: "Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. Hakan bəy, bu məsələdə də heç gecikdirmədən, inşallah, Şuşadakı baş konsulluğumuz hər an açıla bilərsə, bu təbii ki, yenə başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaqdır. Maarif Vəqfimiz Azərbaycan qurumlarının dəstəyi ilə təhsil-tədris sahəsində fəaliyyətini davam etdirir. İnşallah, gələn il məktəbimizin yeni təhsil korpusunu istifadəyə verməyi planlaşdırırıq. Əziz qardaşımla təkbətək görüşümüzdə xüsusilə Xəzərdən keçən Orta Dəhliz və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu xəttini də bir an əvvəl müzakirə etməyimizdə fayda var".

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin, şəxsən Rəcəb Tayyib Ərdoğanın Azərbaycana verdiyi siyasi dəstəyin, səsləndirdiyi bəyanatların Qələbəmizdə xüsusi rolu oldu. Həmin vaxt Azərbaycanın Türkiyənin qırmızı cizgisi olduğunu bəyan edən Ərdoğan siyasi və mənəvi dəstəyi ilə kənar məkrli qüvvələrin müdaxiləsinin, Azərbaycana qarşı çirkin planlar gerçəkləşdirməsinin qarşısını aldı. Qardaş ölkə rəhbərinin iştirak etdiyi bütün tədbirlərdə 44 günün demək olar hər günündə Azərbaycana dəstək bəyanatları verdi, öz komandasının, ölkəsinin cəsarətli duruşunu ortaya qoydu. Bu dəstək imkan verdi ki, Azərbaycan öz hərbi gücü ilə torpaqlarını işğaldan azad etsin.

Ardı Səh. 3

# Qardaş səfəri!

## *Azərbaycan-Türkiyə: yeni hədəflərə birgə addımlarla*



Əvvəli Səh. 2

Təsadüfi deyil ki, ikinci Qarabağ müharibəsində əldə edilən Zəfər yalnız Azərbaycanın deyil, eləcə də Türkiyə və bütün TÜRK dünyasının tarixi Qələbəsi kimi dəyərləndirilir.

### Ürəyi Türkiyə ilə döyünənlər

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da dediyi kimi, Türkiyə-Azərbaycan qardaşlığı dünyada qibtə ilə izlənilir: "Bunu Türkiyədə zəlzələ zamanı da gördük. Azərbaycandan köməyə tələsən heyətlər dərhal zəlzələ bölgəsinə gəldi. Ürəyi Türkiyə ilə döyünən hər bir azərbaycanlıya minnətdaram".

Azərbaycan Prezidenti İlham Əliyev isə açıqlamasında qeyd edib ki: "Prezident seçkilərində Türk xalqının Sizə göstərdiyi inam bir daha Sizin uzun illər ərzində Türkiyə xalqına göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir. Bilirsiniz ki, Sizi Azərbaycanda çox sevirlər. Siz bizim əziz qonağımızsınız. Yeni hökumət üzvlərini də ürəkdən təbrik etmək istəyirəm. Bir çoxlarını tanıyıram".

Bəli, Qarabağ zəfərindən sonra iki ölkə arasındakı təmaslar daha da intensivləşib. Çətin anlarda, dar günlərdə bir olmaq ənənəsi formalaşıb. Türkiyədə baş verən dağıdıcı zəlzələni yadımıza salaq, təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün Azərbaycan xalqının hər biri imkanlarını ortaya qoydu. Qardaş ölkəyə ən güclü maliyyə dəstəyi, ən güclü xilasedici dəstəyi, ən güclü mənəvi dəstək məhz Azərbaycandan gəldi. Bu dəstək indi də davam etməkdədir.

İki qardaş ölkə arasında münasibətlər bütün istiqamətlərdə davam edir. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türkiyənin paytaxtı Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşünü yada salaq. Hər kəs yaxşı xatırlayır ki, bu tədbirin Şuşada keçirilməsi nəzərdə tutulurdu, amma Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyev qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış etdi. Bu, bir daha sübut etdi ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır, Türk dünyasında qarşılıqlı dəstək və hörmət əbədiyyətə qədər davam etdiriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirakı sıradan bir təmsilçilik deyildi. İlham Əliyev çıxışında açıq şəkildə Prezident Ərdoğanın nəinki Türkiyə, bütövlükdə TÜRK dünyası üçün tarixi xidmətlərini vurğuladı: "Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır".

Azərbaycan-Türkiyə münasibətləri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana indiki dövlət səfəri ilə daha da gücləndi, yeni mərhələyə qədəm qoydu. Azərbaycan və Türkiyənin istər daxili məsələlərdə, istərsə də beynəlxalq arenada nümayiş etdirdiyi həmrəylik var. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri kontekstində Türkiyə-Azərbaycan əlaqələri daha da güclənir, iki lider arasında səmimi münasibətlər dövlətlərarası əlaqələrə böyük töhvələr verir. İlham Əliyev Türkiyədə keçirilən seçkilərin birinci turundan sonra Rəcəb Tayyib Ərdoğana zəng etdi və onu, yüksək səs faizi topladığına görə təbrik etdi. Türkiyədəki prezident seçkilərinin ikinci turundan sonra da Rəcəb Tayyib Ərdoğanı ilk təbrik edən də məhz Azərbaycan Prezidenti oldu. Ərdoğanın Azərbaycana Dövlət səfəri əsas məqsəd dövlətlərarası münasibətlərin ən yüksək həddini, ölkələrarası dostluq və əməkdaşlığın ən ali səviyyəsini nümayiş etdirməkdir.

Regionda yeni geosiyasi və geoiqtisadi münasibətlərin başlanğıcını qoyan Azərbaycan və Türkiyə yeni hədəflərə birgə, daha əzmlə yürüməkdə iddialıdırlar. Bu hədəflər sırasında bölgədə daimi sülhə nail olmaq, xalqların birgə və rahat yaşamasını təmin etmək, Zəngəzur dəhlizini açmaq, TÜRK dünyasını daha sıx tellərlə birləşdirmək, Qarabağda aparılan bərpa-yenidənqurma işlərini tamamlamaq, regionun inkişafına, bütövlükdə dünyaya töhfə vermək kimi mühüm məsələlər yer alır.

Türkiyədəki Prezident seçkilərinin ikinci turundan sonra da Rəcəb Tayyib Ərdoğanı ilk təbrik edən məhz Azərbaycan Prezidenti oldu. Bunun davamı olaraq Azərbaycan Prezidenti və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidentinin inaqurasiya mərasiminə qatıldı. İnaqurasiya mərasiminin keçirildiyi zalda iştirak edən dövlət və hökumət nümayəndələri arasında iki Liderin-Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin görüşü böyük alqışlarla qarşılanması da diqqətdən yayınmadı. Dünya bu görüşdən danışdı.

### Şuşa Bəyannaməsi ilə yeni nümunə

Şuşa Bəyannaməsi haqqında danışarkən hazırda aktual xarakter daşıyan informasiya siyasəti və lobbiçilik məsələlərini qeyd etmək olar. Tərəflərin beynəlxalq arenada daha effektiv fəaliyyəti üçün media platforması və diaspor sahəsində birgə addımlarına ehtiyac var. Bəyannamədə Azərbaycan-Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlığın daha da gücləndirilməsi və Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, ümumi problemlər qarşısında birlikdə addımların atılması və ardıcıl həmrəylik göstərilməsi kimi müddəaların yer alması da deyilənlərin bariz nümunəsidir.

Sənəddə qeyd edilir ki, tərəflər öz milli maraq və mənafelərinin təmin edilməsinə yönəlmiş müstəqil xarici siyasət aparır. Sənədə əsasən, beynəlxalq münasibətlərin inkişafı, yerli, bölgə və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə səylər göstəriləcək. Bunun üçün xarici siyasət sahəsində koordinasiyanın və ikitərəfli siyasi məsləhətləşmələrin vacibliyini vurğulanır.



Bu istiqamətdə Türkiyə və Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətin əhəmiyyəti qeyd olunur.

Göründüyü kimi, iki dost, qardaş ölkə münasibətlərin yeni prioritetlər üzrə inkişaf etdirilməsində qərarlıdırlar. Tərəflər bu gün və gələcəkdə atılacaq addımlardan məmnundurlar. Əsas olan budur ki, Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır, hər bir yeniləyə birgə imza atmağa səy göstərirlər. Hansı sahəyə baxsaq bu birliyin, həmrəyliyin özünü qabarıq şəkildə büruzə verdiyini görərik. Prezidentlərin mətbuata birgə bəyanatlarında mühüm mesajlar da öz əksini tapdı. Prezident Rəcəb Tayyib Ərdoğan səlahiyyətlərinin icrasına başlama mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakının dünyaya və Türkiyəyə bir mesaj olduğunu vurğulayaraq, Azərbaycana xanımı ilə birlikdə səfər etdiyini də bildirdi. Bu səfərlər iki dost ölkə arasındakı qardaşlıq duyğularının nə qədər inkişaf etməsinin ifadəsidir.

Dünyaya qardaşlıq nümunəsi olan Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişafı üçün gözəl imkanlar yaranır. İki qardaş, dost ölkə - Azərbaycan və Türkiyə arasındakı əsl dostluq və qardaşlıq münasibətlərinin mahiyyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün zamanında söylədiyi "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarında dəqiq ifadə olunub. Həmçinin, Azərbaycan Prezidenti İlham Əliyev Şuşa Bəyannaməsinin imzalanmasından sonra mətbuata verdiyi bəyanatında qeyd etdiyi kimi, bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir: "Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk".

Azərbaycanla Türkiyə arasında münasibətlərin hazırkı yüksək səviyyəsindən danışarkən bir məqamı xüsusilə diqqətə çatdırmaq lazımdır. Bu da ondan ibarətdir ki, hər iki ölkədə əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə həm dövlətlər səviyyəsində güclü siyasi iradə göstərilir, eyni zamanda, cəmiyyətlər də buna böyük maraq nümayiş etdirirlər. Ölkələrimiz arasında siyasi dialoq yüksək dinamizm ilə fərqlənir. Qarşılıqlı hörmətin və etimadın ifadəsi olaraq Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı seçildikdən sonra ilk səfərini, bir qayda olaraq, Türkiyəyə edir, eləcə də Türkiyə Prezidenti dövlət başçısı statusunda ilk səfərini respublikamıza reallaşdırır. Bu ənənə digər səviyyələrdə də davam etdirilir. İki dövlətin istər daxili məsələlərdə, istərsə də beynəlxalq arenada nümayiş etdirdiyi həmrəylik. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri kontekstində Türkiyə-Azərbaycan əlaqələrinin daha da güclənməsi, iki lider arasında səmimi münasibətlərdən qaynaqlanır.

### Türkiyə Vətən müharibəsində...

Türkiyə-Azərbaycan dostluq və qardaşlığı günümüzdə hər iki ölkənin lideri Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın sayəsində daha da inkişaf edir, möhkəmlənir və irəli gedir. Qardaş ölkədə keçirilən prezident seçkilərindən sonra Rəcəb Tayyib Ərdoğanın ilk xarici səfər kimi Azərbaycana gəlməsi də bunun əyani sübutudur. 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin və şəxsən Rəcəb Tayyib Ərdoğanın Azərbaycana verdiyi siyasi dəstək, səsləndirdiyi bəyanatlar nəticəsində hadisələrin gedişatına kənar məkrli qüvvələrin müdaxiləsinin qarşısı alındı. Tarixi zəfərimizi özündə əks etdirən hərbi paradda qardaş ölkənin prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirakı bir daha dahi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" tarixi kəlamını əyani şəkildə sübuta yetirirdi. Bu həm də onun nümayişi idi ki, İkinci Qarabağ müharibəsində əldə edilən zəfər yalnız Azərbaycanın deyil, eləcə də Türkiyə və bütün türk dünyasının tarixi Qələbəsi idi.

Hazırda dövlətimiz tərəfindən Qarabağda aparılan bərpa-yenidənqurma işlərində də Türkiyə yaxından iştirak edir, hər zaman olduğu kimi, Azərbaycanla həmrəyliyini nümayiş etdirir. Türkiyə ilə Azərbaycanın apardığı siyasət bölgədə sabitlik və sülhün bərqərar olması, xalqların birgə və rahat yaşamasına xidmət edir.

***Siyasət şöbəsi***






# Azərbaycan və Türkiyə prezidentləri Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirak ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirak ediblər.

# Azərbaycanın və Türkiyənin birinci xanımları Bakıdakı DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanış olublar





Dünən Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Bakıdakı DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə tanış olublar. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qonaqlara Mərkəz haqqında məlumat verib.



Bildirilib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi həssas əhali qruplarından olan şəxslər, o cümlədən şəhid ailəsi üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələr və əlilliyi olan şəxslər sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etmək, onlara sosial-psixoloji dəstək göstərməkdir. Təxminən ilyarım əvvəl yaradılan Mərkəzdə hazırda 14 istiqamət üzrə 180-dən çox benefisiarın təlim aldığı diqqətə çatdırılıb.



Qonaqlar Mərkəzdəki audio-səsyazma, floristika və landşaft dizaynı, metal və ağac üzərində oyma, xalçaçılıq, toxuma və tikmə, keramika, musiqi, təsviri sənət studiyalarında keçirilən təlimlərlə, o cümlədən kitabxana ilə tanış olublar.

Azərbaycan və Türkiyənin birinci xanımları Mərkəzin təlimçiləri və təlim alanlarının, inklüziv kamera orkestrinin ifasında musiqi nömrələrini dinləyib, benefisiarların əl işlərindən ibarət sərgi ilə tanış olub, onlarla şəkil çəkdiriblər. Sonda qonaqlara hədiyyələr təqdim olunub.



# Türkiyəli şərhçi: "Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı bütün müttəfiq ölkələr üçün nümunədir"

Rəcəb Tayyib Ərdoğanın prezident seçildikdən sonra ilk dövlət səfərini Azərbaycana etməsi iki dövlət arasındakı dostluğu və qardaşlığı göstərir. Dövlətlərarası münasibətlərin inkişafı bütün müttəfiq ölkələr üçün nümunədir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Türkiyənin "Ulusal" kanalının siyasi şərhçisi Yakub Aslan deyib. O bildirib ki, son 20 ildə Türkiyə ilə Azərbaycan arasında formalaşan qarşılıqlı əlaqələr bu gün yüksələn xətlə inkişaf edir. Azərbaycanın 44 günlük Vətən müharibəsində yaratdığı siyasi reallıqlardan biri də ondan ibarətdir ki, Türkiyə regional siyasətə daha dərin nüfuz etmək iqtidarına malik olub. Rəsmi Ankara heç kimdən çəkinməyərək Azərbaycana hərbi yardım etdi və Azərbaycan torpaqlarını erməni işğalından azad etdi.

Ermənistan anlamalıdır ki, onun sülh prosesinə manee olmağa cəhd etməsi əbəsdir və bu siyasət uzun müddət davam edə bilməz. Azərbaycan regionda tək deyil. Türkiyə həm diplomatik, həm də hərb sahəsində Azərbaycanın yanında olacaq. Türkiyənin diplomatik, iqtisadi və hərbi gücünün artması, ona Cənubi Qafqazda cərəyan edən geosiyasi proseslərə müdaxilə etmək və yaxın müttəfiqinə, dost və qardaş Azərbaycanı dəstəkləməyə imkan verir. Prezident seçkilərindən sonra Rəcəb Tayyib Ərdoğanın ilk dövlət səfərini Azərbaycana etməsi tarixi xarakter daşıyır.



Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata birgə bəyanatında Prezident R.T.Ərdoğan qarşılıqlı əlaqələrə dair bir sıra məsələlərə toxundu. Təhsil, müdafiə sənayesi, nəqliyyat, tranzit, regional təhlükəsizlik kimi məsələlərə toxunan Türkiyə Prezidenti açıq şəkildə bildirdi ki, bu sahələrdə Azərbaycan ilə yaxın əməkdaşlıq əlaqələrini davam və inkişaf etdirəcək. R.T.Ərdoğan Prezident İlham Əliyevin Zəngəzur dəhlizi təşəbbüsünü dəstəkləyir. Bu yol Türkiyənin Şərqdən Azərbaycan, Orta Asiya və Çinlə, Qərbdən isə şərqi və qərbi Avropa dövlətləri ilə birləşməsinə səbəb olacaq. Tranzit yükdaşımaların mərkəzinə çevriləcək Türkiyə regionda sülhün və əmin-amanlığın hökm sürməsində maraqlıdır.

Onu da nəzərə almaq lazımdır ki, Ermənistan böyük qüvvələrin geosiyasi oyunlarına alət olaraq sülh prosesinə manee törədir. R.T.Ərdoğanın səfəri bu problemin də həllinə nail olmaq imkanı yaradır. Türkiyə ilə Azərbaycan arasında imzalanan Şuşa Bəyannaməsi rəsmi Ankaraya Qarabağ məsələsinə həm diplomatik, həm də hərbi müdaxilə imkanı verir. Yakub Aslan bildirib ki, Türkiyə ilə Azərbaycanın birliyi digər türkdilli dövlətlərin də bu birlik ətrafında cəmləşməsinə səbəb olacaq. Bu birlik dünya siyasətində layiqli yer tutmaq, inkişaf və tərəqqi üçün olduqca vacibdir.

# İrəvanın oynadığı İKİLİ OYUNLAR

**Ermənistanın baş naziri Nikol Paşinyanın Soçidə Rusiya Federasiyasının prezidenti ilə görüşü dünya ictimaiyyətinin diqqətindən yayınmayıb. Vladimir Putinin dəvəti ilə təşkil olunan görüşün guya işgüzar xarakter daşıdığını ermənilər formal olaraq bəyan etsələr də reallıqlar göz önündədir və hələ də haylar hamını aldadacaqlarını düşünməkdədirlər və bu dəfə bərk yanılırlar. Çünki ikiüzlülükləri və yalançılıqları ilə kifayət qədər ikrah doğurublar və "ad" da qazanıblar.**



Təbii ki, Ermənistana məxsus mətbuat səhifələri görüşdə yalnız ikitərəfli və regional gündəliyə aid məsələlərin, o cümlədən Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlılarının məsuliyyət zonasında vəziyyətin müzakirə edilməsinin planlaşdırıldığını bildirilirməsi gözlənilən idi. Çünki 44 günlük müharibədə hadisələri, xəbərləri xalqına tamamilə tərsinə çatdıran mediadan başqa heç nə gözləmək də olmazdı. Məsələ burasındadır ki, reallıq tamamilə başqa şeydən xəbər verir və bu dəfə digər məsələlərlə yanaşı, Paşinyan bir sıra onu narahatedici məsələlərlə bağlı açıqlama verməli olub. Daha dəqiq desək, erməni baş nazirin quyruğu qapı arasında qalıb. Səbəb də bəllidir. Bəlli olan odur ki, Paşinyanın rəhbərlik etdiyi ölkənin ən tanınmış simaları da son vaxtlar ən yaxın müttəfiqləri olan Rusiyaya qarşı müxtəlif statuslu kifayət qədər kəskin bəyanatlar səsləndirirlər. Sözsüz ki, Moskva da buna səssiz qalmayıb və rusların reaksiyaları İrəvana qarşı sərt cavabları ilə yadda qalıb.

Vəziyyət heç də əvvəlki kimi deyil. Heç də Rusiya sətiraltı şəkildə narazılıq ifadə etmir. Rəsmi Moskva artıq rəsmi səviyyədə öz Xarici İşlər Nazirliyi vasitəsilə İrəvanın ABŞ və Avropa İttifaqına diqqətini artırmasından, Ermənistanın açıq şəkildə özünü Qərbə yönəltməyə çalışmasından narazılığını kəskin olaraq, özü də açıq-aşkar bildirir. Kreml yaxşı başa düşür ki, ermənilər yeni ağa axtarışındadırlar və əgər kimsə onları nökər olaraq qəbul etsə, dərhal həmin istiqamətə keçib xəyanətkarcasına ruslara qarşı çıxış etmiş olacaqlar. Bununla belə, hayların ümumiyyətlə bir neçə istiqamətdə var-gəl etmələri də Moskvanı qane etmir və onlardan birmənalı mövqe, son qərarı tələb edir. Daha dəqiq desək, ruslar ermənilərdən tələb edirlər ki, əgər müvafiq imtiyazlara malik forpost kimi qalmaq istəyirlərsə, Moskva ilə eyni xarici siyasət kursunda qalsınlar.

Doğrudur, Ermənistan kimi zəif bir dövlət Rusiyanı heç də maraqlandıra bilməz. Elə isə rusların təcili şəkildə Paşinyanı sual-cavaba çağırması və şərt qarşısında qoyması nə üçündür? Sözsüz ki, bu məqamda yenə ermənilərin alət olaraq istifadə edilməsi nəzərdə tutulur. Bələki, Ermənistan-Azərbaycan danışıqlarında əsas moderatorun məhz Rusiya olması barədə Kreml Qərbə vaxtaşırı mesaj ötürmək fikrindədir. Məqsədin Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması olduğunu iddia etmək kimi bir niyyətimiz yoxdur, amma Moskva hər dəfə göstərmək istəyir ki, sözügedən məsələdə nailiyyətə, Qafqazda sülhə ancaq Rusiyanın köməyi ilə, özü də Üçtərəfli Bəyanat əsasında nail olmaq mümkündür. Yəni, ruslar bölgədə daha vacib faktor olduqlarını bəyan etmək, göstərmək istəyirlər və buna görə də ermənilərin, həmişə olduğu kimi alət olaraq istifadə olunması nəzərdə tutulur. İndi Nikol Paşinyanın gündə bir ağıla qulluq edərək gah bir, gah da digər istiqamətə meyl etməsi Putinin özü üçün də xoşagəlməz məqam sayılır və bu dəfə lazımi qulaqburması vermək üçün onu Soçidə görüşə əbəs yerə çağırmamışdı.

Doğrudur, kimsə təkzib edə bilməz ki, razılaşmalara əməl etməkdən boyun qaçıran Ermənistandır. Bunu Moskva da yaxşı bilir. Hətta Paşinyanın niyə Soçidə müxtəlif yalançı arqumentlərlə çıxış etməsini də ruslar gözəl başa düşürlər. Onsuz da erməni baş nazirinin absurd iddialarına təkcə ruslar deyil, bütün dünya alışqandır. Hər kəs bilir ki, bir zamanlar beli çantalı küçə nümayişçisi kimi peyda olan və Qərbin layihəsi kimi özünü hakimiyyət kürsüsünə daşıyan bu manipulyator hər addımda Azərbaycanı günahkar göstərmək üçün ən axmaq və yalan iddialara da əl atır. Onun axmaq iddialarına görə, guya müqavilələrə əməl etməkdən yayınan elə Azərbaycan tərəfidir. Bu hiyləgər Laçın dəhlizindəki "vəziyyət" deyib guya dad deyir. Üstəlik, Qarabağ ermənilərinin "blokadası" deməyə də olmayan üzündə üz tapır. Amma Putin özü çox yaxşı bilir ki, erməni baş nazir rəsmi İrəvanın ikiüzlü mövqeyini nümayiş etdirir və etdikləri ancaq həyasızlıqdır. Bu həyasızlığı elə Ermənistanın baş naziri ilə yanaşı Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da ölkəsinin İctimai Televiziyanın efirində edib və son günlər Moskva ilə bağlı səsləndirdiyi xoşagəlməz bəyanatlara görə özünə haqq qazandırmalı da olub. Bunun ardınca Rusiya Xarici İşlər Nazirliyi onları təxribat hücumu adlandırıb. Bu həmin Qriqoryandır ki, Azərbaycanla iqtisadi-nəqliyyat əlaqələrinin blokadadan çıxarılmasından sonra Ermənistanın Rusiya Federasiyasına Zəngəzur dəhlizinə daxil olubolmaması zamanı sərhəd və gömrük keçid məntəqələrində nəzarət funksiyalarını təmin etmək fikrində olmadığını bildirib. Buna görə də Moskva öz xarici siyasət idarəsinin rəsmi nümayəndəsi Zaxarovanın nitqindən istifadə edərək, onu məzəmmət edib, məsələnin əsaslı şəkildə Azərbaycan Respublikası, Ermənistan Respublikası və baş nazir müavinləri tərəfindən işləndiyi vurğulanıb. Bir sözlə, Rusiya məsələyə öz kəskin münasibətini elə kəskin şəkildə də bildirib və Nikolun heç arzulamadığı sorğu-sual qarşısında olması da bu mənada gözlənilən idi.



Heç şübhəsiz ki, əvvəllər Ermənistandan vaxtaşırı eşidilən anti-Rusiya bəyanatlarına kifayət qədər təmkinli reaksiya verən Moskva indi belə niyyətdə görünmür. Görünən odur ki, dəəyəsən rusların səbr kəsası əməlli başlı dolub, hətta daşıb da. Hayların ikiüzlülüyündən, ikili oyunlarından rusların təngə gəldiyi dərhal duyulur və Putinin də Paşinyan təcili şəkildə çağırması bunu təsdiq edir. Bu həm də onu təsdiq edir ki, yeganə müttəfiqini itirmək təhlükəsi ilə üz-üzə qaldığı barədə İrəvana xəbərdarlıq da edilib. İndi erməni baş nazir Ermənistan üçün yaranmış vəziyyətin kövrəkliyini yaxşı başa düşür, görür də. Bununla belə onun həm də Qərbin əlinə oynamaq kimi bir niyyətinin olmayacağını söyləmək qətiyyən mümkün deyil. Bunu Putin də bilir və xəbərdarlığı da buna görə olub. Məsələ burasındadır ki, Nikol Paşinyan belə vəziyyətdə hamıya söz verir, amma reallıqda isə düşdüyü situasiyanın təhlükəsini dərk edərək ikili oyunu davam etdirir. Özü də hiyləgərcəsinə davam etdirir və əvvəlcə bir tərəfə, sonra ona qarşı olan tərəfə söz verir və bu ikiüzlülüyündən əl çəkəzəyi real görünmür.

Əvvəlcə mayın 9-da Moskvadakı paradda, sonra da onun ardınca Kişinyovda keçirilən Avropa sammitində iştirak etməsi Paşinyanın ikili siyasətinin, ikiüzlülüyünün bariz nümunəsi sayılır. Bir zamanlar əli sarıqlı, beli çantalı nümayişçi obrazında küçələrə çıxan və manipulyator kimi dünyada tanınan Nikol indi də elə həmin zamanlardakı tendensiyasına uyğun hərəkət edir. Bələki, Paşinyan bir tərəfdən qərbyönlü demokrat rolunda özünü göstərməyə çalışır, digər tərəfdən isə Rusiya maraqlarının tərəfdarı imicini qoruyub saxlamaq üçün əldən-ayaqdan gedir. Onun hakimiyyət komandası da məhz onun özü kimi, buqələmum kimi, analoji davranış nümayiş etdirir. Onlar da ABŞ və Avropa İttifaqına getdikləri zaman Rusiya Federasiyasının siyasətinə qarşı ağızlarına gələn hədyanları danışırlar, Rusiyanı orada hədəfə alırlar, sonra Moskvaya tələsərək yalnız rusların maraqları və göstərişləri əsasında hərəkət etməyə hazır olduqlarına hər kəsi inandırmağa çalışırlar. Yəni, ikili oyunlar oynayırları ikiüzlülüklə, özü də məharətlə oynayırlar, amma bu o demək deyil ki, oyunu aparırlar, xeyr. Ruslar artıq qulaq burmasının zamanı olduğunu haylara çoxdan qandırıb. Heç şübhəsiz ki, Soçidə Paşinyana Ermənistanın KTMT-dən çıxması ilə bağlı xəyallarının, Qərbə yol açmaq istəyinin, erməni baş nazirə yaxın adamların Moskva ilə bağlı neqativ bəyanatlarının hansı nəticələrə gətirib çıxara biləcəyini yerli-yataqlı "izah" ediblər. İndi bu "izah"-dan lazımi nəticə çıxarıb-çıxarmamaq ermənilərin öz üzərinə düşür, amma ikili oyunlarının öz başlarına belə olacağını anlamaq da onlar üçün vacib şərtdir, çünki onsuz da vəziyyətləri hər mənada yaxşı deyil.

***İnam Hacıyev***

# "Son zəng" çalındı

*Bu gün Azərbaycanda bütün ümumtəhsil müəssisələrində onbirillik məktəb həyatının "Son zəng"i çalındı. 2022/2023-cü dərs ilinə yekun vuruldu. 2022-2023-cü tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin IX siniflərini 40 016, XI siniflərini 26 453, XII siniflərini isə (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) 144 nəfər bitirir. Paytaxtda 45 108 nəfər isə I sinfi başa vurur. 2022-2023-cü tədris ilində paytaxt üzrə 282 ümumi təhsil məktəbində fəaliyyət göstərən 976 məktəbəhazırlıq qrupuna 22 902 uşaq cəlb olunub. Qeyd edək ki, BŞTİ-nin tabeliyində 310 ümumi təhsil məktəbi, 3 xüsusi ümumi orta məktəb və 5 əyani-qiyabi axşam məktəbi olmaqla, cəmi 318 məktəb, 336 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.*



Ümumilikdə ölkə üzrə 2022-2023-ci tədris ilində 11-ci sinifləri 98 660 şagird bitirir. Onu da bildirək ki, bu günədək 110 mindən çox uşaq onlayn sistem üzərindən heç bir müsabiqə olmadan birinci siniflərə yerləşdirilib. Doxsan mindən çox uşaq məktəbəhazırlıqdan birbaşa birinci sinfə qəbul olub. Növbəti tədris ilində 130 mindən çox uşağın birinci sinfə qəbulu proqnozlaşdırılır.



On bir il parta arxasında oturub müəllimlərini həvəslə dinləyən, elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. Artıq bu gündən gənclər müstəqil Azərbaycanın müstəqil vətəndaşı kimi həyata qədəm qoyacaqlar.

Məlumdur ki, bir neçə ildir ki, ölkəmizdə ümumtəhsil məktəblərində hər il iyunun 14-də son zəng qeyd edilir. SSRİ dövründə və dövlət müstəqilliyinin bərpasından sonra 2005-ci ilə qədər mayın 25-i, 2005-ci ildən 2016-cı ilə qədər isə mayın 31-də qeyd olunmuşdur.Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Müasir dövrdə ölkələrin inkişaf konsepsiyasını təhsil müəyyənləşdirir. Bu baxımdan, müasir təhsil sisteminin yeni çağırışlara cavab verməsi məqsədi ilə təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilib. Ölkəmizdə son illərdə bir sıra dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib. Təkcə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıblar. Təhsillərini yüksək akademik göstəricilərlə tamamlamış məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir. Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ildən-ilə artırılması da hökumətin bu sahənin keyfiyyətcə yeniləşməsi üçün ardıcıl və sistemli fəaliyyət göstərdiyini təsdiqləyir. Ayrılmış vəsaitlər "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"na və "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"ya uyğun olaraq, təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə geniş maliyyə təminatı yaratmışdır. Təhsil sistemində islahatlar nəticəsində 15 yaşdan yuxarı əhali arasında savadlılıq səviyyəsi, ibtidai təhsilə nailolma, ibtidai təhsili başavurma səviyyəsi demək olar ki, yüz faizə çatdırılıb.

Bu gün Azərbaycanın daxili imkanları genişləndikcə, təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində də davamlı olaraq işlər görülür. Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb. Bütün bunlar Prezident İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olub.

Son illərdə ölkədə təhsil müəssisələrinin inkişafı istiqamətində mühüm addımlar atılmış, müxtəlif şəhər və rayonlarda təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası istiqamətində uğurlu işlər görülmüşdür. Məktəb tikintisi ilə bağlı qəbul olunmuş dövlət proqramları bu sahədə sürətli inkişafı təmin edib. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb.

Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, dövlət proqramları və islahatlar bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də, neft gəlirləri Azərbaycanda, həm də təhsilin inkişafına yönəldilib. Şübhəsiz ki, bütün bunlar təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib. Qətiyyətlə deyə bilərik ki, Azərbaycanın gələcəyi üçün layiqli, ləyaqətli və vətənpərvər gənclər yetişir. 2022-2023-cü tədris ilində müxtəlif layihələr reallaşıb. Respublika və beynəlxalq səviyyədə fənn olimpiadaları keçirilib və iştirak edən şagirdlərin sayı xeyli artıb. Azərbaycan məktəblilərinin beynəlxalq bilik yarışlarında qazandıqları uğurlar bir-birini əvəz edir.

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri davam edir. Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından, çox mühüm addımlardandır. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, deməyə əsas verir ki, Azərbaycanda bu sahədə görülən işlər uğurlu işıqlı gələcəyimizə hesablanıb.

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günü-gündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.

Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb. Təhsilin səviyyəsi keyfiyyət baxımından yeni mərhələsini yaşayır. Müasir gənclik ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkir. Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Ölkəmizdə iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar Azərbaycan təhsilinə təsirini göstərməkdədir. Yeni proqram və layihələr, təhsil islahatları həyata keçirilir. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günü-gündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır. Bugünkü məzunlar Azərbaycanın demokratik bir dövlət kimi daha da inkişaf etdirilməsi üçün çalışmalı, bütün qüvvələrini ölkəmizin uğurlarına yeni uğurlar əlavə etməyə sərf etməlidirlər. Bu günün məzununu həyata hazırlayan güclü dövlətimiz, sağlam düşüncəli ziyalılarımız olduğundan mətin, iradəli və intellektual səviyyəli gənclərimiz müstəqil həyata vəsiqə alırlar. İşğaldan azad olunan ərazilərin də hər bir yerində yaxın illərdə son zəng çalınacaqdır. Necə ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd tam orta məktəbində son zəngin səsi ətrafa yayıldı. Düşmən tapdağından azad edilərək yenidən qurulan Cocuq Mərcanlıda bu sevinc, həyəcan, iftixar hissi yaşanıldı. Cocuq Mərcanlı öz məzunlarına uğurlar arzuladı. Ermənistanın işğalından azad olunan Zəngilan rayonunun Ağalı kənd tam orta məktəbində 29 ildən sonra ilk dəfə dərs başladı və ilk zəngin sədaları məktəbliləri sinif otaqlarına səslədi. Yaxın zamanda bütün işğaldan azad olunan ərazilərimizdə "Son zəngin" səsini eşidəcəyik.

Zəfər qazanmış Azərbaycanın MƏZUNLARI, yolunuz uğurlu olsun!

***Zümrüd BAYRAMOVA***

## Heydər Əliyev və intellektual potensialın inkişaf dinamikası



İyunun 13-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Heydər Əliyev və intellektual potensialın inkişaf dinamikası" mövzusunda Respublika elmi konfransı keçirilib. SİA xəbər verir ki, konfransda giriş nitqi söyləyən universitetin rektoru professor Cəfər Cəfərov Ümummilli Lider Heydər Əliyevin hələ Azərbaycana rəhbərlik etməyə başladığı birinci dövrdən etibarən, həyata keçirdiyi məqsədyönlü siyasətin mühüm tərkib hissələrindən birinin ölkənin elmi-intellektual potensialının və elmi infrastrukturunun inkişaf etdirilməsi olduğunu diqqətə çatdırıb. Rektor qeyd edib ki, bu siyasət Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də ardıcıl surətdə davam və inkişaf etdirilir.

Sonra proqrama uyğun olaraq, ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov "Heydər Əliyev və Azərbaycan elmi", Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev "Heydər Əliyev və siyasi elitanın formalaşması", konfransda onlayn formatda iştirak edən HotenburqUniversitetinin dosenti, İsveçdə "QobustanAzərbaycan Aydınları" Ocağının başqanıSəadət Kərimi "Heydər Əliyev və Azərbaycan diasporunun formalaşması","Səs" qəzetinin baş redaktoru, "SƏS" media qrupunun rəhbəri Bəhruz Quliyev "Heydər Əliyev və müstəqil medianın inkişafı", ADPU-nun Heydər Əliyev Mərkəzinin müdiri Tahir Süleymanov isə "Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyevin rolu"mövzularında məruzələr ediblər.

Yekunda məruzələr ətrafında müzakirələr aparılıb.

# Heydər Əliyev-100






## Heydər Əliyev və intellektual potensialın inkişaf dinamikası

İyunun 13-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) ”Heydər Əliyev və intellektual potensialın inkişaf dinamikası” mövzusunda Respublika elmi konfransı keçirilib. SİA xəbər verir ki, konfransda giriş nitqi söyləyən universitetin rektoru professor Cəfər Cəfərov Ümummilli Lider Heydər Əliyevin hələ Azərbaycana rəhbərlik etməyə başladığı birinci dövrdən etibarən, həyata keçirdiyi məqsədyönlü siyasətin mühüm tərkib hissələrindən birinin ölkənin elmi-intellektual potenasialının və elmi infrastrukturunun inkişaf etdirilməsi olduğunu diqqətə çatdırıb. Rektor qeyd edib ki, bu siyasət Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də ardıcıl surətdə davam və inkişaf etdirilir.

Sonra proqrama uyğun olaraq, ADPU-




nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov ”Heydər Əliyev və Azərbaycan elmi”, Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev ”Heydər Əliyev və siyasi elitanın formalaşması”, konfransda onlayn formatda iştirak edən HotenburqUniversitetinin dosenti, İsveçdə ”QobustanAzərbaycan Aydınları” Ocağının başqanıSəadət Kərimi ”Heydər Əliyev və Azərbaycan diasporunun formalaşması”,”Səs” qəzetinin baş redaktoru, ”SƏS” media qrupunun rəhbəri Bəhruz Quliyev ”Heydər Əliyev və müstəqil medianın inkişafı”, ADPU-nun Heydər Əliyev Mərkəzinin müdiri Tahir Süleymanov isə ”Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyevin rolu”mövzularında məruzələr ediblər.

Yekunda məruzələr ətrafında müzakirələr aparılıb.

## Qalib Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edir

*Gədəbəy rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*








“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Gədəbəy rayon təşkilatı iyunun 13-də rayon Heydər Əliyev Mərkəzində ”Heydər Əliyev və müasir qüdrətli Azərbaycan” mövzusunda tədbir keçirib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotostendlə tanış olublar. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra dahi şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Gədəbəy rayon təşkilatının sədri Rüstəm Nağıyev Ulu Öndər Heydər Əliyevin ölkəmizi müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsindən xilas edərək inkişaf yoluna çıxardığını bildirib. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya inteqrasiya prosesinə qoşulmasında və modern cəmiyyətin qurulmasında həlledici rol oynayıb.

YAP İdarə Heyətinin üzvü, Elm və Təhsil Nazirliyi akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru, kimya elmləri doktoru Əfsun Sucayev söyləyib ki, Ulu Öndər Heydər Əliyev bütün dövrlərdə öz xalqına sədaqətlə xidmət edib. Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb.

Gədəbəy rayon İcra Hakimiyyəti başçısının birinci müavini Natiq Nağıyev vurğulayıb ki, müasir müstəqil Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyev tarix yaradan əvəzolunmaz şəxsiyyətdir. Onun sözlərinə görə, Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz yeni nailiyyətlər qazanaraq güclü və nüfuzlu dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirib.

Daha sonra çıxış edən Gədəbəy rayon Heydər Əliyev Mərkəzinin direktoru Pərviz Bayramov, Gədəbəy rayon Ağsaqqallar Şurasının sədri Kərəm Məmmədov, Düzyurd kənd tam orta məktəbin direktoru, partiya üzvü Kəklik İbrahimova çıxışlarında vurğulayıblar ki, müasir müstəqil Azərbaycan Ümummilli Liderin şah əsəridir. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri heç vaxt unudulmayacaq. Bu gün qalib və qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edir, möhtəşəm uğurlar qazanır.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# ABŞ-ın NED təşkilatı siyasi avantüra mərkəzinə çevrilib

Mövcud fakt və reallıq ondan ibarətdir ki, Azərbaycanın dünyada yeri və rolu artdıqca bəzi dairələrin narahatlığı da artmaqdadır. Ölkəmizin düzgün və qətiyyətli inkişaf və tərəqqi amilinə söykənən siyasətinə kölgə salmaq üçün Qərb siyasi dairələri tərəfindən təlimatlandırılan xarici QHT-lər, "demokratiya institutları" ardıcıl şəkildə Azərbaycana qarşı şər və böhtan kampaniyası aparırlar. Bəhanələr də irəli sürür və bu bəhanələr ətrafında şoular yaradırlar. Biz bunu Azərbaycanda bir sıra beynəlxalq miqyaslı konfransların, "Eurovision" mahnı yarışmasının, I Avropa Oyunlarının və digər beynəlxalq tədbirlərinin keçirilməsi zamanı müşahidə etmişik. Azərbaycanın gücünə güc qatan Qarabağın erməni işğalından azad edilməsindən sonra bir sıra yerli və xarici dairələrin ölkəmizə qarşı qara piar kampaniyası bir qədər də genişlənib. Əsas rolda yenə də ənənəvi ampluası ilə Azərbaycan cəmiyyətinə tanış olan ABŞ-ın Milli Demokratiya Fondu ("National Endowment for Democracy" - NED) adlanan təşkilatı çıxış edir. Məlum faktdır ki, bu təşkilat ABŞ Dövlət Departamenti tərəfindən idarə olunur və ABŞ Konqresinin ayırdığı maliyyə vəsaitləri hesabına öz maraqları çərçivəsində fəaliyyət göstərir. Bu gün NED təşkilatı ABŞ-ın ən güclü silahına çevrilib. Həmin silah hesabına zəif və iradəsiz insanlar, təşkilatlar ələ alınaraq öz siyasi-ictimai maraqları üçün istifadə edilir. İstifadə olunan şəxslər və siyasiləşmiş QHT -lər arasında Azərbaycanın bir neçə təşkilatlarının da adı çəkilir. Hüquq müdafiəçisi Sahib Məmmədov mətbuata açıqlamasında bildirib ki, ABŞ-ın NED (National Endowment for Democracy) təşkilatı 2022-ci ildə gizli maliyyələşmə sxemi üzrə (üçüncü ölkələr və diplomatik missiyalar vasitəsi ilə) Azərbaycan təşkilatlarına (Əsasən QHT və media) 1 100 000 ABŞ Dollarından bir qədər artıq qrant ayırıb. Qrantlar aşağıdakı istiqamətlərin maliyyələşməsinə yönəlib: "Korrupsiyaya uğramış tenderlərin sənədləşdirilməsi, Gənc Alimlərin Demokratiya Tədqiqatına cəlb edilməsi, Azərbaycanda Hüquqlardan sui-istifadə və Korrupsiyaya görə hesabatlılığın təşviqi, yerli iştirak üçün bacarıqların yaradılması, hüquqi yardımların göstərilməsi, İnsan hüquqlarının monitorinqi, yerli problemlərin həlli, Vətəndaş İştirakının və İcma İştirakının Gücləndirilməsi, və s. Xülasədən görünür ki, əsas vəsaitlər yerlərdə vətəndaş fəallığının artırılması və şəbəkələşmə, əhalinin ayrı-ayrı təbəqələrinin nümayəndələrinin, o cümlədən gənc alimlərin fəallaşdırılması, sosial şəbəkələrdə iş, korrupsiya ilə bağlı məsələlərin işıqlandırılması kimi sahələri əhatə edir. Bununla belə bəzi istiqamətlərin adı şərti də ola bilər. Məsələn, dini təriqətlərinin inkişafı, orta məktəblərdə dinin tədrisinə nail olunması və ya müxtəlif təriqətlərə mənsub müəllimlərin hazırlanması kimi layihələr də bir qayda olaraq NED tərəfindən maliyyələşdirilən layihələrdəndir".

## NED-in arxasında ABŞ dövləti dayanır

Görünən ondan ibarətdir ki, məkrli qüvvələrin Allen Veinsteyn əli ilə yaratdıqları NED-in əsas istiqaməti ölkələrin daxili həyatına müdaxilə etmək, insanların hüquq və azadlıqlarını məhdudlaşdırmaq, cəmiyyət həyatında narazılıq toxumu səpməkdir. Söz yox ki, bu kimi eybəcər addımları bir təşkilat həyata keçirə bilməz. Deməli, yayılan məlumatlar və ortaya çıxan faktlar həqiqəti əks etdirir - NED-in arxasında ABŞ dövlətinin müəyyən qaranlıq dairələri dayanır. Xatırlatmaq yerinə düşərdi ki, Təşkilatın təsisçisi Allen Veinsteyn 1991-ci ildə "Vaşinqton Post" qəzetinə göndərdiyi bir açıqlamasında qeyd etmişdir: "Bu gün bizim gördüyümüz işlərin böyük qismi hələ 25 il öncə CIA tərəfindən həyata keçirilirdi".




## NED ABŞ-ın büdcə təşkilatıdır

Faktlara istinad etsək məlum olar ki, NED nizamnamə üzrə özünü müstəqil və heç bir siyasi təşkilata yamaq hesab etmədiyini bildirsə də, əslində, ABŞ-ın büdcə təşkilatıdır. Çünki bu təşkilatın büdcəsi tamamilə ABŞ Konqresi tərəfindən təmin edilir. Hətta NED hər dəfə Konqresə növbəti maliyyə vəsaitini almaq üçün öz fəaliyyət hesabatını təqdim edir. NED-in ayrı-ayrı ölkələrdə əlaqə qurduğu qruplara və təşkilatlara verəcəyi vəsaitlərin siyahısı isə təsdiq olunmaq üçün əvvəlcə ABŞ-ın Xarici İşlər Nazirliyinin nəzarətindən keçir.

Nəzərə almaq lazımdır ki, bu təşkilatın əsas hədəfləri sırasında Azərbaycanda dayanır. NED ABŞ dövləti tərəfindən maliyyələşdiyini və təlimat aldığını nəzərə alsaq demək olar, Azərbaycana qarşı qərəzli kampaniyanın arxasında elə ABŞ dövləti dayanır. Azərbaycanda çox böyük uğurla baş tutmuş I Avropa Oyunları öncəsi NED -in qərəzli yazı yaymasını bu gün də mətbuat yazarları təşkilatı qınaq obyekti olaraq qeyd edirlər. O zaman ABŞ Dövlət Departamenti sözçüsü Mari Harfın ənənəvi mətbuat toplantısında jurnalist ondan ABŞ-ın Azərbaycanda keçiriləcək Avropa Oyunları qabağı ölkənin imicini qaralamaq üçün plan hazırladığına dair yazıya münasibət bildirməsini istəyib. Jurnalist deyib: "Məqalədə dövlət katibi Con Kerri ermənipərəst kimi göstərilir. Əvvəlcə, bilmək istəyirəm ki, Dövlət Departamentinin buna reaksiyası necə olacaq? İkincisi, hökumətə rəsmi etiraz göndərməklə bağlı hər hansı plan varmı?" Departament sözçüsünün həmin suala cavabı isə belə olub: "ABŞ-ın Azərbaycanın suverenliyi və müstəqilliyinə olan uzunmüddətli dəstəyinə sözdən daha çox etibar edilir. Bu məqalədəki iddialar isə tamamilə əsassızdır və həqiqətə uyğun deyil".




## Con Kerrinin ifşası çox çəkmədi

ABŞ Dövlət Departamentinin rəhbəri Con Kerrinin ifşası barədə ortaya çıxan sənədlərdə danılmaz faktların ortaya çıxması və bütün bunların müqabilində ABŞ Dövlət Departamentinin suala qaneedici cavab verməməsi təsdiq edir ki, bütün bunlar, ilk növbədə, Azərbaycana qarşı hazırlanmış rüsvayçı təxribatın tərkib hissəsidir. Lakin bu məqamda xatırlatmaq yerinə düşər ki, başda Con Kerri olmaqla Azərbaycana qarşı qara piar kampaniyası aparanlar bir dəfə də olsun öz ölkələrində konkret olaraq, ABŞ-da baş verən hadisələrə diqqət yetirsələr yaxşı olar. Çünki son vaxtlar ABŞ-da etnik, irqi və dini zəmində ayrı-seçkilik, ksenofobiya və islamofobiya təzahürləri çox güclənib. Bu ölkədə milli, dini və etnik zəmində baş verən münaqişələrin miqyası gündən-günə genişlənərək qarşısıalınmaz prosesə çevrilir. Elə bu məqamda ABŞ-ın Merilend ştatındakı Baltimor şəhərində kütləvi iğtişaşların yenidən başlanmasını göstərə bilərik. Çünki Baltimordakı iğtişaşlar zamanı 210 nəfər həbs olunub, 15 bina və 144 avtomobil yandırılıb, yüzlərlə dükan qarət olunub, 47 polis xəsarət alıb. Kütləvi iğtişaşların səbəbi 25 yaşlı qaradərili Freddi Qreyin polis tərəfindən öldürülməsidir. F.Qreyi saxlayan polislər onu vəhşicəsinə döyərək onurğasını sındırmışdılar. Qrey xəstəxanada, intensiv terapiya bölməsində keçinmişdi. Etiraz dalğasının böyüdüyünü görən rəsmilər fövqəladə vəziyyət elan edərək Baltimor şəhərinə Milli Qvardiyanın hərbçilərini yeridiblər.

Şəhərdə komendant saatı tətbiq olunub. İndi ABŞ mediasındakı xəbər başlıqlarının arasında "ABŞ-da yeni Ferqüsson var. O, "Baltimordur" ifadəsi dəb halını alıb. Baltimordakı etiraz aksiyalarının liderlərindən biri, qaradərili Çarli Uolker ABŞ-ın hüquq-mühafizə orqanlarını rüşvətxorluqda, insan haqlarını pozmaqda və korrupsiyada ittiham edib: "Polisləri daşa basmaq, dükanları qarət etmək və yandırmaq və maşınları sıradan çıxarmaq bizim mübarizə yolumuz olmamalıdır. Dolların hakimiyyətinə zərbə vurmalı, korporasiyalara pul ödəməyi dayandırmalıyıq. Onlar yalnız bunu anlayırlar. Pul onlar üçün çox vacibdir. Həyatlarımızı isə heçə sayırlar. Bu həşəratların köləliyində



400 il qaldıq. Onlar artıq kölə olmadığımızı hələ də anlamaq istəmirlər".

## ABŞ idarəolunmaz dövlətə çevrilir

ABŞ-da irqi diskriminasiya o həddə çatıb ki, artıq dərisinin rəngindən asılı olaraq, insanlara münasibət sərgilənir. "The New York Times" qəzeti yazır ki, Staten Island yaşayış məntəqəsində Deniel Pantaleo adlı polis 6 uşaq atası olan 43 yaşlı Erik Harneri qanunsuz siqaret satdığına görə həbs etmək istəmişdi. Lakin polis Afrika əsilli vətəndaşı kobudcasına boğub. Nəticədə, astma xəstəliyindən əziyyət çəkən Erik Harner elə hadisə yerindəcə vəfat edib. Bu cinayəti törədən həmin polis isə azadlığa buraxılıb.

Yenə də faktlara istinad etsək aydın olur ki, NED burnunu yalnız Azərbaycana yönəltmir, həm də digər ölkələrində daxili işlərinə müdaxilələr edir. Məsələn, indiyədək NED təşkilatındakılar Hondurasda dövlət çevrilişi, Ukrayna və Gürcüstanda rəngli inqilab, Çinin Sincan-Uyğur bölgəsində və digər regionlarda qanlı hadisələrin törədilməsinə bilavasitə rəvac veriblər. Rusiyada müəyyən maraqlarını həyata keçirməyə cəhd edən zaman ifşa olunmuş və qurum ölkədən xaric edilmişdir. Yəni, ABŞ-ın "Demokratiyaya Dəstək Fondu"- (NED) Rusiyada "arzuedilməz təşkilat" elan edilib. Bu, Rusiyada rəsmən münasibət bildirilən ilk belə əcnəbi QHT olub. Rusiya Baş Prokurorluğu bu QHT-nin fəaliyyətini ölkənin konstitusiya quruluşuna, müdafiəsinə, təhlükəsizliyinə təhlükə yaratdığını bəyan edib.

**İ.ƏLİYEV**

# Milli Qurtuluş Günü Azərbaycana əmin-amanlıq, firavanlıq gətirdi

*”Mən bütün həyatımı xalqa xidmət etməyə həsr etmişəm, bundan sonra da bu yolla gedəcəyəm, başqa yolum yoxdur. Vətənə, xalqıma, millətimə məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur.”*

***HEYDƏR ƏLİYEV***

Hər bir xalqın tarixində öz müqəddəratını həll etdiyi bir gün var. 15 iyun Qurtuluş Günü də məhz Azərbaycan xalqının özünü təsdiq etdiyi bir gündür. Bu günün özəlliyi isə birbaşa əbədiyaşar liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bir çağırışla xalqının xilaskarına çevrilən Heydər Əliyev Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı. Millətinin bir əsrdə qurduğu ikinci müstəqil dövlətinin dünya xəritəsində silinmək təhlükəsindən xilas edən ümummilli lider qayıdışı ilə problemlər məngənəsində qıvrılan Azərbaycanı regionun liderinə çevirdi.

Tarixə nəzər salarkən Heydər Əliyevin necə ağır bir dövrdə hakimiyyətə qayıtdığının şahidi oluruq. Ovaxtkı Azərbaycanın durumunu hamımız yaxşı xatırlayırıq. Azərbaycan 1993-cü ilin iyununda, sözün əsl mənasında, məhv olmaq, parçalanmaq ərəfəsindəydi. 1992-ci ilin may-iyun aylarında zorakı vasitələrlə hakimiyyətə gələn AXC-Müsavat cütlüyünün yaratdığı hərc-mərclik Azərbaycanı parçalanma təhlükəsi ilə üz-üzə qoymuşdu. 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini qazanmış Azərbaycan 1993-cü ilin iyunun 15-nə qədərki müddətdə çoxsaylı dövlət çevrilişləri, böhranlar, xaos və çaxnaşmalarla qarşılaşmışdı. Daxilimizdəki satqınlar Azərbaycanı öz aralarında bölməyə çalışırdılar. Xalq Cəbhəsinin fəallarından olan Əlikram Hümbətov adlı birisi Lənkəran bölgəsində ”Talış-Muğan Respublikası” yaratdığını elan etmişdi. 1992-ci ilin mayında Ayaz Mütəllibovu hakimiyyətdən uzaqlaşdıran AXC-Müsavat cütlüyü düz bir il sonra Xalq Cəbhəsinin digər nümayəndəsi, hətta əvvəllər ”Milli Qəhrəman” adı verilmiş Surət Hüseynovun qiyamı ilə devrilmişdi. Vətən övladları iki cəbhəyə bölünmüş, əldə silah üz-üzə dayanmışdılar. Qardaş qırğını başlamaqda idi. S.Hüseynov hələ Bakıya çatmamış dövləti, ölkəni, xalqı qoyub qaçan AXC-Müsavat rəhbərləri yalnız özlərini xilas etmək barədə düşünürdülər. Azərbaycan, sözün əsl mənasında, başsız qalmışdı. Düşmənlər də bundan istifadə etmək fürsətini əldən vermirdi.



**Nazim İsmayılov,**
***Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü***

Bundan başqa onlar yarıtmaz fəaliyyətlərini ört-basdır etmək üçün xalqın yeganə nicat yolu olan Heydər Əliyevə qarşı kampaniya aparırdılar. Bir-birinin ardınca baş verən hakimiyyət dəyişiklikləri, təsadüfi, heç bir idarəçilik təcrübəsi olmayanların hakimiyyətə yiyələnmələri, dövlət çevrilişlərinə cəhd, vəzifədən sui-istifadə edərək reket, qaçaqmalçılıq, terror, adam oğurluğu və s. kimi cinayətlər ölkədə adi hala çevrilmişdi. Qısa müddət ərzində ölkənin varidatı amansız surətdə talan edilmişdi. Torpaqlarımız hərraca qoyulur, xəyanət nəticəsində bir-birinin dalınca işğalçıların əlinə keçirdi.

Beləliklə, Xalq Cəbhəsinin içində, keçmiş silahdaşlar arasında baş verən qarşıdurmalar 1993-cü ilin iyununda Gəncə üsyanıyla nəticələndi. Mövcud siyasi-iqtisadi və sosial böhran hakimiyyətin fəaliyyətini iflic vəziyyətə gətirib çıxardı. Baş nazir, Milli Məclisin sədri, bütün güc nazirliklərinin rəhbərləri istefaya göndərildi, ölkə faktiki cəhətdən idarəolunmaz hala düşdü. AXC-Müsavat cütlüyünün həyata keçirdiyi tədbirlər cəmiyyəti dərin uçurum qarşısında qoydu. Ölkədə yaranan ictimai-siyasi xaos, anarxiya, zorakılıq və s. nəticə etibarı ilə vətəndaş qarşıdurmasının reallaşmasına, Azərbaycanın erməni təcavüzkarlarına qarşı apardığı ədalətli müharibədə məğlubiyyətə uğramasına, hakimiyyətin tam iflasına gətirib çıxardı. 1993-cü ilin iyununda artıq Azərbaycan dövlətçiliyi ən ağır böhran və dağılma təhlükəsi ilə üzləşdi. Ölkə vətəndaş müharibəsi və parçalanma həddində idi.

Həmin vaxt artıq hər kəsin nəzərləri Naxçıvana - dahi siyasətçi və dövlət xadimi Heydər Əliyevə dikilmişdir. Azərbaycanı yalnız Heydər Əliyevin təcrübəsi, müdrikliyi, iradəsi ilə xilas olunacağına heç kim şübhə etmirdi. Azərbaycanın görkəmli oğlu, böyük şəxsiyyət Heydər Əliyev xalqın bu ağır günündə şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu dahi şəxsiyyət həyatını təhlükə altına qoyaraq Gəncəyə getdi və vəziyyətlə yerində tanış oldu. Onun Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənmisinin qarşısını aldı. Ümummilli liderimiz Gəncədə baş verən hadisələrə münasibət bildirərkən demişdi: ”Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq qanun qarşısında məsuliyyət daşımalıdırlar”. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı.

Heydər Əliyevin hakimiyyətə qayıdışı təkcə siyasi tələb deyildi. Bu, artıq dövrün ictimai tələbatına çevrilmişdi. Hətta iş o yerə çıxmışdı ki, AXC-Müsavat təmsilçiləri parlamentin iyunun 15-də keçirilən iclasında Heydər Əliyevdən öz təhlükəsizlikləri üçün təminat istəmişdi. Onları nəinki siyasi, həm də fiziki ölümdən məhz Heydər Əliyev xilas etdi.

Xalqın təkidi ilə 1993-cü il iyunun 15-də Naxçıvandan Bakıya gələn Heydər Əliyev Ali Sovetin sədri seçildi. Bu, Azərbaycanın qurtuluş anı idi və iyunun 15-i tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Ölkə Prezidenti Əbülfəz Əliyev iyunun 18-də Bakını tərk edib Kələkiyə qaçandan sonra Heydər Əliyevin üzərinə düşən yükün ağırlığı daha da artdı. İyunun 23-də Azərbaycan Ali Soveti bu quruma rəhbərlik edən Heydər Əliyevə ölkə prezidentinin səlahiyyətlərini həyata keçirməyi həvalə etdi. Böyük şəxsiyyət iyunun 24-dən MM-in qərarı ilə prezidentin səlahiyyətlərini həyata keçirməklə artıq bütün dövlət strukturlarına rəhbərlik edirdi.

Bununla da xalqın istəyi, təkidi və tələbi ilə Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəldi. Millət və dövlət çətinliklərdən xilas oldu, xalqın istəyi, arzusu çin oldu. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan tarixinin şanlı səhifələri yazıldı. Bəli, məhz 1993-cü ilin 15 iyununda gənc və kövrək, ancaq gerçək müstəqillik tariximizin əsası qoyuldu.

Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyində həlledici dönüş oldu. Ümummilli lider hakimiyyətə gələndən sonra ağır vəziyyətdə olan ölkənin qarşısında duran əsas problemlər mərhələli şəkildə həll olunmağa başladı. Gəncədəki gərgin hadisələr dinc yolla nizama salındı. Əlikram Hümbətovun elan etdiyi qondarma ”Talış Muğan Respublikası” Heydər Əliyevin xalqa müraciəti və bölgə əhalisinin təzyiqi ilə ləğv olundu. Ölkənin şimalında fəallaşan ”sadval”çıların separatçı hərəkətlərinin qarşısı alındı. Müxtəlif şəxslərin və siyasi qruplaşmaların nəzarətində olan silahlı birləşmələr zərərsizləşdirildi.

1993-cü ilin oktyabrında Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonra onun fəaliyyəti daha da genişləndi və Azərbaycan dövlətinin yeni əsaslar üzərində qurulmasının Heydər Əliyev dövrü başlandı. Gərgin zəhmətin, siyasi kamilliyin və müdrikliyin sayəsində çox az vaxtda Heydər Əliyev iflic vəziyyətə salınmış hakimiyyət maşınını yenidən hərəkətə gətirdi, xalqın başı üstünü alan bütün təhlükələri aradan qaldırdı, vahid mərkəzdən idarə olunan dövlət icra strukturu yaratdı, etnik parçalanmaların qarşısına sipər çəkdi, milli ordumuzu yenidən qurdu, 1994-cü ilin mayında atəşkəsə nail olaraq bütün səyləri ölkədə dağılmış iqtisadiyyatın yenidən qurulmasına səfərbər etdi. Bütün bunlar Heydər Əliyevin böyük yaradıcılıq və təşkilatçılıq potensialının, gərgin fiziki əməyinin, siyasi qüdrətinin bəhrəsi idi və onun sağlamlığı bahasına əldə edilirdi.

Heydər Əliyev uzaqgörən siyasəti ilə ölkənin neft strategiyası işlənib hazırlandı. Neft strategiyasının başlıca məqsədi Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin karbohidrogen ehtiyatlarının xalqın istifadəsinə verilməsi idi. Heydər Əliyev çox az vaxtda bu çətin və şərəfli vəzifənin öhdəsindən gəldi. 20 sentyabr 1994-cü il Heydər Əliyev iradəsinin gücü ilə Azərbaycan Respublikasının tarixinə qızıl hərflərlə yazıldı. Məhz həmin gün möhtəşəm ”Gülüstan”sarayında dünyanın 14 ölkəsindən 33 iri neft şirkətinin iştirakı ilə- ”Amako”, ”Penzoil”, ”BP”,”Reemko”, ”Statoyl”, ”Lukoyl”, ”Türk Petrolları” və s. nüfuzlu neft şirkətləri ilə ”Əsrin müqaviləsi” imzalandı.

Heydər Əliyev bu dövrdə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını işləyib hazırladı. Bu, Azərbaycan dövlətinin beynəlxalq normalara uyğun olan ən demokratik konstitusiyası olmalı idi. Konstitusiya layihəsi işlənib hazırlandıqdan sonra, ümumxalq müzakirəsinə verildi və 1995-ci ilin 12 noyabrında referendum keçirilərək qəbul edildi. Az sonra Heydər Əliyevin rəhbərliyi ilə xırda və orta dövlət müəssisələrinin özəlləşdirilməsinə və ölkədə sahibkarlığın inkişafına önəm verildi. Bu dövrdə aqrar islahatlar da geniş vüsət aldı. Müvafiq qanunlar qəbul edildi və həmin qanunlara uyğun olaraq ölkədə 850 mindən yuxarı ailə torpaq mülkiyyətçisi oldu. Ailə-fermer təsərrüfatı sürətlə inkişaf etməyə başladı.

Heydər Əliyevin siyasi qüdrəti sayəsində ölkədə azad vətəndaş cəmiyyəti formalaşdı. Siyasi partiyaların, qeyri-hökümət təşkilatlarının və digər vətəndaş cəmiyyətlərinin sərbəst fəaliyyətinə önəm verildi. Bir sözlə, ümummilli lider Heydər Əliyev özünün siyasi potensialının, zəngin dövlətçilik təcrübəsinin və dönməz iradəsinin sayəsində Azərbaycan Respublikasını fəlakətdən qurtararaq, qısa bir zamanda onu dünyanın ən sivil və demokratik dövlətləri sırasına çıxarmışdır.

İndi regionda heç bir layihə Azərbaycanın razılığı və ya iştirakı olmadan həyata keçə bilməz. Azərbaycan bu illərdə dünyanın nəhəng dövlətləri ilə sıx münasibətlər qurdu, Avropa Şurasına və bir sıra beynəlxalq təşkilatlara tamhüquqlu üzv qəbul olundu. Bütün bunlardan belə nəticə çıxarmaq olar: əgər Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, Azərbaycanın bir dövlət kimi parçalanıb məhv olmaq təhlükəsi reallaşacaq, indiki qüdrətli dövləti qurmaq mümkün olmayacaqdı. Prezident İlham Əliyevin sözləri ilə desək - ”İndiki müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Azərbaycanda Heydər Əliyevin siyasəti yaşayır, möhkəmlənir, yeni formalarla zənginləşir”.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu qısa bir zaman ərzində işğal olunmuş torpaqlarımızın azad edilməsi idi. Dahi liderin bu arzusunu onun alternativsiz davamçısı möhtərəm cənab Prezident İlham Əliyev yerinə yetirdi. 2020-ci ilin sentyabrın 27-dən başlayan 44 günlük Vətən Müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Rəşadətli Ordumuzun qəhrəmanlığı ilə 30 il işğal altında olan torpaqlarımız azad olundu.

2023-cü il 10 may tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Şuşada mərkəzi meydanda xalqa müraciətində demişdir: ”Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya Azərbaycanlılarının arzusunu çin etdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O, gün mənə, bax bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, ”Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!” Ondan sonra şəhidlər xiyabanını ziyarət etdim. Şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı”.

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz Ümummilli Lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zamanənin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyin təminatçısı kimi qəbul edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Bu il xüsusilə əhəmiyyət kəsb edir. 2023-cü il həm də Ulu Öndərin 100 illik yubileyi ilidir. Respublikamızda, ölkəmizin kənarında bu dahi şəxsiyyətin 100 illiyinə həsr olunan silsilə tədbirlər keçirilir. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Bu yol məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin əlindədir. Ölkə başçısı İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.




# Dövlətçilik salnaməmizin şanlı səhifəsi - Milli Qurtuluş Günü

Azərbaycan xalqının milli dövlətçilik tarixi bir sıra mühüm hadisələrlə və əlamətdar günlərlə zəngindir. Həmin hadisələr xalqın gələcək taleyinin müəyyənləşməsində müstəsna rol oynayıb.Təbii ki, burada lider amili mühüm amil kimi səciyyələnir. Müasir Azərbaycanın intibahı və tərəqqisi də məhz belə bir LİDER, böyük siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır. Bu il xalqımız və bütün dünya azərbaycanlıları üçün çox əlamətdar bir ildir. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olunub. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, dahi Azərbaycanlı, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi həm respublikamızın bütün guşələrində, həm də dünyanın bir çox ölkələrində böyük təntənə ilə qeyd olunur.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində Ümummilli Liderimizin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir. Bu baxımdan, 30 il öncə - 1993-cü il iyun ayının 15-də Ulu Öndərimizin Azərbaycanda hakimiyyətə qayıdışının və bu qayıdışın fonunda Milli Qurtuluşumuzun 30 ili tamam olur. Bugünlər Azərbaycan xalqı 15 İyun Milli Qurtuluş Gününü böyük coşğu ilə qeyd edir.

Məlumdur ki, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də, respublikada çox mürəkkəb proseslər baş verirdi. Bir tərəfdən, Ermənistanın ərazi iddiaları, digər tərəfdən isə daxili ictimia-siyasi, sosial-iqtisadi böhran dərinləşməkdə davam edirdi. 1992-ci ildə qanunsuz olaraq hakimiyyətə gələn qüvvələrin səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin 1993-sü ilin əvvəllərindən başlayaraq yol verdikləri başıpozuq əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyllərinin baş qaldırması və bütün bunların ölkənin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Dövlət əmlakının talan edilməsi xalqı acınacaqlı duruma salmışdı. Dövlət idarəetməsində heç bir təcrübəsi olmayan şəxslərin vəzifəyə gətirilməsi suverenliyimizə təhdid yaratmışdı. Bütün ölkələrlə münasibətlər korlanmış, bəzi ölkələrə qarşı iddialar irəli sürməklə Azərbaycanı qonşu ölkələrlə düşmən etmişdi və ölkəni təcrid olunmuş vəziyyətə salmışdı.

Hakimiyyət daxilində qruplaşmaların yaranması və daxili mübarizə ölkədə vəziyyəti daha da kəskinləşdirirdi. Ovaxtkı prezident ölkədə real vəziyyətdən, cəbhədəki durumdan bixəbər idi. Beləliklə, AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə nəticələndi, Şuşanı, Laçını düşmənə təhvil verdi. Hakimiyyəti zəbt etmiş qüvvələrin xəyanəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü.

Respublikamızda bu cür acınacaqlı vəziyyətin əsas səbəbi liderin olmaması idi. Məlumdur ki, Azərbaycan xalqının faciələri Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdı. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verdi. İstefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmış və Azərbaycan xalqının faciələri o gündən başlamışdı. Əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər.1990-ci illərin əvvəllərində hakimiyyətdə olan qüvvələr Azərbaycanı Heydər Əliyev yolundan döndərməyə çalışdılar. O vaxt iqtidarda olanlar sağlam düşüncənin səsinə qulaq asıb, böyük siyasi xadimi respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycanda 20 Yanvar, Xocalı faciələri baş verməz, Laçın, Şuşa xəyanətlərinin qurbanı olmaz, ölkə ərazisinin 20 faizi işğal edilməz, dövlət müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməzdi. Lakin bunu etmədikləri üçün Azərbaycanda vəziyyət daha da ağırlaşdı, 1993-cü ildə dövlətçiliyimiz məhv olmaq, respublikamız məhv olmaq təhlükəsi ilə üz-üzə qaldı.

Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Ulu Öndər Heydər Əliyevdə görürdü. Dövlətçilik anlayışından bixəbər olan və hərbi birləşmələri əslində öz məqsədləri üçün istifadə edən ayrı-ayrı şəxslərin hədələrindən qorxub gizlənmiş və bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC-Müsavat cütlüyü sonda Heydər Əliyevdən imdad istədi. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib Bakıya gəldi. Həmin dövrü Ulu Öndər Heydər Əliyev belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirib, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarıb, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını alıb, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən edib. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər Heydər Əliyev Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə yollandı və vəziyyəti yerindəcə öyrəndi. Bununla da, Ümummilli Liderimiz Azərbaycanda vətəndaş müharibəsinin qarşısını aldı. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Beləliklə, 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər ƏliyevAzərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və onun hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu. 1993-cü il iyunun 24-də Milli Şuranın qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə verildi. 1997-ci ilin iyun ayında isə Milli Məclis 15 iyun gününü Milli Qurtuluş Günü- rəsmi dövlət bayramı elan etdi. Əminliklə söyləmək olar ki, 1993-cü ilin 15 iyun tarixi gün, eyni zamanda, Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

Ulu Öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Ulu Öndərin tarixi missiyası üç mühüm amilə söykənirdi. Birincisi, xalqın Heydər Əliyevə olan möhkəm, sarsılmaz inamı və dəstəyi; ikincisi, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü, qüdrəti, əzəməti; üçüncüsü, Ulu Öndər Heydər Əliyevin mənsub olduğu Azərbaycan xalqına, Vətəninə sonsuz və təmənnasız sevgisi idi.

Ümumiyyətlə, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. 1993-cü ilin oktyabr ayında keçirilmiş prezident seçkilərində xalq öz seçimini etdi və Ulu Öndər Heydər Əliyevi dövlətimizin başçısı seçdi. Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Ümummilli Lider andiçmə mərasimindəki nitqində deyib: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Beləliklə, Ulu Öndər Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq nümunəsidir. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi.

Ulu öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlanıldı. Odur ki, Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş Günü Azərbaycanın xaosdan, anarxiyadan, hərcmərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi. Bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi. Cənab Prezident İlham Əliyevin dediyi kimi "Danılmaz həqiqətdir ki, Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır. Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi".

2003-cü ildə Azərbaycan xalqı Heydər Əliyev siyasətinin davamına səs verdi. Xalqımız Ulu Öndərimizin layiqli davamçı cənab İlham Əliyevə və Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasına etimad göstərdi. Bu gün möhtərəm cənab Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Ümummilli Liderin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz yeni nailiyyətlər qazanaraq güclü və nüfuzlu dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirib. Dövlətimizin başçısının uğurlu, səmərəli daxili və xarici siyasət həm Azərbaycanın yüksəlişi və inkişafında, milli maraqların qorunmasında, həm də ölkəmizin dünya siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır.

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!" -deyə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev bəyan edib. Bu gün dövlətimizin başçısı İlham Əliyev işğaldan azad edilmiş torpaqlarda infrastruktur layihələrinin təməlini qoyur, Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, düşmənin yerlə-yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək. Bütövlükdə, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında bir sözlə, Ulu Öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan bu gün Prezident İlham Əliyevin liderliyi özünün ən güclü və qüdrətli dövrünü yaşayır. Qazanılan bütün nailiyyətlərin əsasında isə Qurtuluş məfkurəsi dayanır!

***Ağalar Vəliyev***
***Milli Məclisin deputatı***



# Milli Qurtuluşun memarı

**Belə bir şəraitdə Azərbaycan xalqı XX əsrdə ilk dəfə Heydər Əliyevin şəxsində özünün güclü ümummilli liderini yetişdirmiş və onun ətrafında sıx birləşmişdir.**

1985-ci ildə Qorbaçovun hakimiyyətə gəlişi ilə keçmiş SSRİ-nin türk-müsəlman xalqlarına, ilk növbədə isə bu xalqların lideri hesab olunan Heydər Əliyevə qarşı məkrli planlar hazırlanmağa və həyata keçirilməyə start erildi. Respublikadan mərkəzə böhtan, yalan dolu məktublar yollanır, mərkəzi mətbuatda iftiralı yazılar dərc olunmağa başlandı. Stepanakertə bazara alverə gələn azərbaycanlılardan tərəzi vermək adı ilə pasportları yığılır, bütün məlumatlar yazılır, imza atdırılır, sonra isə istədikləri məzmunda böhtan yazılır, imzalar arxasına tikilərək Moskvaya göndərilirdi. Həmin vaxtlarda İttifaqın nüfuzlu qəzeti olan ”Literaturnaya qazeta”da Vaynşteynin ”Əliyevçilik” adlı böyük məqaləsi dərc olunmuşdur-iftira, yalan, böhtanla dolu yazının müəllifinin qohumu AzİI-də hüquqşünas işləyirdi-onun məqalənin yazılması ilə bağlı dedikləri dövrün eybəcərliyinin göstəricisi idi. Məqalə Moskvanın dəstəyi, keçmiş respublika prokuroru, rüşvətə görə işdən qovulan Qanbay Məmmədovun maliyyə köməyi, respublika rəhbərliyinin biganəliyi nəticəsində dərc olunmuşdur. Keçmiş İttifaq rəhbərliyi müsəlman respublikalarının iqtisadi və mədəni inkişafına şərait yaratmır, bu respublikaların xalqları ilə ikinci dərəcəli vətəndaşlar kimi rəftar edirdilər.

SSRİ-nin ali rəhbərliyində təmsil olunan Heydər Əliyevin bu məsələdə tutduğu prinsipial, humanist və qətiyyətli mövqeyi onun Sov.İKP MK Siyasi Bürosunun və SSRİ hökumətinin tərkibindən istefası ilə nəticələndi. Heydər Əliyev hakimiyyətdən uzaqlaşdırılsa da Moskva onun siyasi iradəsindən ehtiyatlanaraq Özbəkistanda həyata keçirdiyi, minlərlə günahsız insanın həbs olunması ilə nəticələnən Qdlyanın ”pambıq qiyamını” Azərbaycanda həyata keçirə bilmədi. Qorbaçovun və onun ətrafındakı millətçi erməni dairələrinin Azərbaycana təzyiqləri daha da gücləndi-Azərbaycanı parçalamaq, onun inkişafının qarşısını almaq, əhalini sonu görünməyən etnik münaqişəyə cəlb etmək məqsədi ilə qondarma Dağlıq Qarabağ problemi ortaya atıldı, Azərbaycan torpaqlarının işğalının əsası qoyuldu. Azərbaycan xalqının milli və tarixi maraqlarını qorumağa, ölkə vətəndaşlarını müdafiə etməyə qadir olmayan o zamankı Azərbaycan rəhbərləri mərkəzin bir çox hallarda Azərbaycanın ziyanına olan qərarlarını kor-koranə yerinə yetirməkdən başqa bir iş bacarmırdılar. SSRİ rəhbərliyinin Azərbaycana münasibətdə yol verdiyi tarixi ədalətsizlik, respublika rəhbərliyinin fərsizliyi, Dağlıq Qarabağ probleminin həllində yol verilən kobud səhvlərdən yorulan xalq meydanlara axışaraq həm sovet rəhbərliyinə, həm də onun yerlərdəki canişinlərinə öz kəskin etirazlarını bildirdi. Azərbaycanda keçmiş SSRİ rəhbərliyinə etimadsızlıq, eləcə də milli-azadlıq hərəkatının ilk rüşeymləri Qarabağ problemi ilə bağlı meydana çıxdı. Problemin həll edilməməsi bu etimadsızlığı və mübarizə əhval ruhiyyəsini daha da artırdı.

Xalq hələ 1988-ci ilin ilk mitinqlərindən başlayaraq, Azərbaycanın üzləşdiyi ciddi problemləri həll etməyə qadir siyasətçini görür və onun yenidən Azərbaycan rəhbərliyinə qayıtmasını arzulayırdı. Yüzlərlə adamın mitinq və nümayişlərə Heydər Əliyevin portretləri ilə çıxması bu arzunun ümumxalq miqyasında, açıq şəkildə ifadəsi idi. Bu arzu münaqişə zonasında - Dağlıq Qarabağın və ətraf rayonların azərbaycanlı əhalisi arasında daha kəskin surətdə və qətiyyətlə ifadə olunurdu. Bütün Azərbaycan xalqı öz böyük oğluna - Heydər Əliyevə qarşı yerli və mərkəzi mətbuat səhifələrində aparılan qərəzli kampaniyaya qəti etirazını dönə-dönə bildirmişdir.

Həmin dövrdə olan, mərkəzin etimadını qazanmaq üçün dəridən-qabıqdan çıxan respublika rəhbərliyi milli birlik haqqında, xalqı düşdüyü ağır vəziyyətdən qurtarmaq haqqında düşünmürdü-məhz onların xalqın taleyinə tam laqeydliyi, o zamankı SSRİ rəhbərliyinə yarınmaq naminə yol verdikləri milli xəyanət, fəaliyyətsizlik və prinsipsizlik 1990-cı il yanvarın 20-də Bakıya sovet qoşun hissələrinin yeridilməsi və Azərbaycan xalqının ədalətli, haqlı tələblərinin qan içində boğulmasına gətirib çıxarmışdı. Moskvada yaşayan Heydər Əliyev sülhsevər Azərbaycan xalqına qarşı silah tətbiq edilməsini qətiyyətlə pisləmiş, 20 yanvar cinayətinin mahiyyətini və onu törədən qüvvələrin niyyətlərini aydın şəkildə göstərmiş, Azərbaycanın haqq səsini dünyaya yaymışdır.

Moskvanın təzyiqlərinə və yerli hakimiyyətin törətdiyi bütün təhlükəli maneələrə baxmayaraq 1990-cı ilin yayında Azərbaycana qayıdan Heydər Əliyev Azərbaycanda kommunist ideologiyasının hələ də dövlət səviyyəsində davam etdirildiyi bir şəraitdə milli və bəşəri inkişaf yolunda sipərə çevrilmiş bu ideologiyadan qətiyyətlə imtina etdi. Xalq onu yekdilliklə Azərbaycan Ali Sovetinə deputat seçdi-o Ali Sovetin iclaslarında Dağlıq Qarabağ probleminin həlli, respublikanın gələcək siyasi və iqtisadi müstəqilliyi ilə bağlı proqram mahiyyətli nitqlərlə çıxış etdi-təəssüf ki, çoxları fundamental, uzaqgörən təklifləri dərk edib qiymətləndirə bilmədi.

1991-1993-cü illərdə Ulu öndər Naxçıvana rəhbərlik etdi-Azərbaycan Respublikasının üçrəngli bayrağı ilk dəfə Naxçıvan Ali Məclisi üzərində qaldırıldı.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Bu sənədlə Azərbaycan hüquqi baxımdan müstəqillik əldə etsə də, əslində yerli rəhbərlik imperiyaya yarınmaq siyasəti yeridirdi-onlar Ermənistanın Azərbaycana qarşı açıq təcavüzünün qarşısını almaq, Dağlıq Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyini təmin etmək, ordu quruculuğuna başlamaq və digər bu kimi tədbirləri həyata keçirmək əvəzinə yalnız öz şəxsi hakimiyyətlərini qorumağa çalışırdılar.

Xalq hərəkatı dalğasında siyasi səhnəyə gələnlərlə hakimiyyətdə olanlar arasında kürsü davası gedirdi-ölkədə xaos, özbaşnalıq hökm sürürdü, ayrı-ayrı şəxslərə, siyasi qruplara məxsub qanunsuz silahlı dəstələrin yaradılması ölkəni vətəndaş müharibəsinə sürükləyirdi-bütün bunlar XX əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı ilə nəticələndi. Hakimiyyətdən rüsvayçılıqla uzaqlaşdırılan rejimi heç bir dövlət idarəçiliyi təcrübəsi olmayan, mitinq tribunalarından gələn AXC iqtidarı əvəz etdi. AXC-nin meydan qəhrəmanları özlərini iddialı şəkildə milli azadlıq hərəkatının liderləri adlandırsalar da, əslində ölkədə gedən prosesləri, milli azadlıq hərəkatının, müstəqillik meyllərinin güclənməsi bütün keçmiş SSRİ məkanında, hətta dünya miqyasında cərəyan edən proseslərlə sıx bağlı idi.

Yaranmış şəraitdə Azərbaycan xalqı öz sınanmış liderinin hakimiyyətə qayıdışını daha böyük təkid və qətiyyətlə tələb etməyə başladı-əslində xalqın bu tələbi hələ 1988-ci il mitinqlərindən başlayaraq mütəmadi şəkildə irəli sürülürdü. Yüz minlərlə adam millət və dövlət üçün belə böhranlı məqamda Heydər Əliyev təcrübəsindən, siyasi fəhmindən və uzaqgörənliyindən istifadə olunmasını, onun yenidən siyasi hakimiyyətə qayıtmasına imkan verilməsini tələb edirdi. Lakin nə sovet imperiyasının sadiq buyruqçuları olan yerli kommunist ”rəhbərlər”, nə də silahlı çevrilişlər yolu ilə müəmmalı şəkildə hakimiyyətə gəlmiş yalançı demokratik qüvvələr milli dövlət quruculuğunda, milli həmrəylik və birlik yolunda son dərəcə mühüm amil olan Heydər Əliyev fenomenindən faydalanmaq istəmirdilər. Çünki birincilər üçün öz ağalarının əmr və tapşırıqlarını sədaqətlə yerinə yetirmək, ikincilər üçün isə əllərinə keçirdikləri hakimiyyət kürsüsünü nə yolla olursa-olsun qoruyub saxlamaq hər şeydən vacib idi. Xalqın və dövlətin taleyi onlar üçün o qədər də əhəmiyyətli deyildi. Onlar Heydər Əliyevin necə böyük bir qüvvə olduğunu, Azərbaycanı düşdüyü bəlalardan yalnız onun çıxara biləcəyini kifayət qədər başa düşürdülər. Lakin hakimiyyət hərisliyi, hədsiz ambisiyalar və milli maraqlara tam laqeydlik bu imperiya buyruqçularına və əyalət siyasətçilərinə layiq olmadıqları halda tutduqları yeri ümummilli mənafelər naminə xalqın həqiqi liderinə, müdrik rəhbərinə və yolgöstəricisinə qaytarmağa imkan vermirdi. İstər o dövrdə hakimiyyətdə olanlar, istər hakimiyyətə hərəkat dalğası ilə gələnlər, istərsə də qəfil zühur etmiş digər başabəla ”siyasi liderlər” və onların öz ətrafına topladığı qruplar xalqın yeganə ümid yeri olan Heydər Əliyevi hər vəchlə siyasi meydandan sıxışdırıb çıxarmağa, onu xalqdan təcrid etməyə can atır və bu yolla da özlərini güclü şəxsiyyətdən qorumaq istəyirdilər. Bu adamlar adi bir həqiqəti belə dərk etmək istəmirdilər ki, konkret ictimai-siyasi şəraitdə hakimiyyətin əldə edilməsi mümkün olsa da, onun idarə edilməsi çox-çox çətindir.

Parlamentin o dövrdə keçirilən iclaslarında Ulu öndərin tövsiyyə xarakterli hər bir çıxışına yerlərdən mənasız, problemdən uzaq replikalar atılır, mikrafon qarşısında hazırlanmış xüsusi adamların böhtan dolu çıxışlarının növbəsi yaranırdı. Seçkilərlə bağlı yaş senzi müzakirə olunarkən xalqın tələbi ilə 70 yaş məhdudluğunun aradan qaldırılması məsələsində də saxtakarlığa yol verildi-guya Heydər Əliyevin razılığını almaq üçün Naxçıvana zəng vurmağın mümkün olmadığı bəhanəsi ortaya atıldı. Bundan əlavə AXC-nin missionerləri ”biz hakimiyyətə gəlmək üçün altı dövlətin razılığını almışıq” bəyanatları da gülünc görünürdü.

Qarabağ problemini həll etmək və ölkədə demokratik dəyişikliklər aparmaq vədi ilə hakimiyyətə gələnlər nəinki öz vədlərinə əməl etmədilər, hətta qısa müddət ərzində ölkəni fəlakət girdabına, vətəndaş müharibəsi və parçalanma həddinə gətirib çıxardılar. Onların bir illik hakimiyyəti dövründə Azərbaycanın strateji cəhətdən əhəmiyyətli əraziləri itirildi, yeni ərazi itkiləri üçün real təhlükə yarandı. Ordu quruculuğu sahəsində konkret heç bir iş görülmədi. Dövlət quruculuğu kimi son dərəcə mühüm sahə başlı-başına buraxıldı, xalqın mənafeyi unudularaq, ayrı-ayrı şəxslərin istək və iddialarına meydan açıldı. Xarici siyasət xəttinin müəyyənləşdirilməsində yol verilən kobud səhvlər və ifrat subyektivizm halları Azərbaycanın dünya miqyasında təklənməsinə, bir sıra region dövlətləri ilə qarşılıqlı münasibətlərinin gərginləşməsinə gətirib çıxardı. Ölkədə dövlətə deyil, ayrı-ayrı şəxslərə xidmət edən silahlı dəstələr yarandı. Bu isə həmin şəxslərin Konstitusiyaya zidd yolla hakimiyyətə gəlmələri, qeyri-sabitlik və hərc-mərclik üçün zəmin yaratdı, Azərbaycanın bir müstəqil dövlət kimi varlığını təhlükə altına aldı. Ölkədə iqtisadi böhran dərinləşdi, xalqın həyat səviyyəsi xeyli pisləşdi, hakimiyyətin bütün pillələrindəki fərsizlik, təcrübəsizlik və naşılıq, kadr siyasətində neobolşevizm meylləri və kobud səhvlər yalançı ”demokratik” iqtidarın bütün mahiyyətini, onun xalqdan uzaqlığını, sosial dayaqlardan məhrum olduğunu aşkara çıxardı. Siyasi böhran 1993-cü ilin əvvəllərindən başlayaraq daha kəskin xarakter aldı-daxildəki pozucu qüvvələrin və xaricdəki təhrikçilərin fəal əməkdaşlığı sayəsində Azərbaycanın parçalanmasının əsası qoyulur, etnik qarşıdurmalar və vətəndaş müharibəsi üçün zəmin hazırlanırdır-artıq Azərbaycanda hökumət böhranı deyil, dövlət böhranı yaranmışdır. Kəlbəcərin işğalı Azərbaycanda böhranı son həddə çatdırdı-bununla bir sırada ölkə daxilində hərcmərclik, quldurluq, korrupsiya, banditizm baş alıb gedirdi, cəzasızlıq mühiti yaranmışdır, addımbaşı insanların hüquqları tapdalanırdı, iqtidarın dövlətin idarəetmədə səriştəsizliyi, ciddi siyasi səhvləri, tale yüklü məsələlərdə düzgün qərarlar qəbul edə bilməməsi, xalqdan ayrılması və onun etimadını tamamilə itirməsi hakimiyyəti iflic vəziyyətinə gətirdi. Ölkə idarə edilmir, hər kəs öz başının çarəsini qılmağa çalışırdı.

Öz ətrafında qanunsuz silahlı hərbi birləşmələr yaratmış siyasi qruplar hakimiyyət uğrunda çəkişməni yenidən qızışdırmağa başlamışdırlar.

Gəncədə S.Hüseynovun başçılıq etdiyi hərbi dəstələr xalqdan dəstək görməyən iqtidarının istefasını tələb edərək, Gəncədən Bakıya yürüş edib, yolüstü rayonlarda yerli hakimiyyəti öz əllərinə alırdılar. Digər tərəfdən Azərbaycana arxadan zərbə vuraraq, ”Talış-Muğan Respublikası” elan edən Ə.Hümbətov və onun ətrafında birləşən separatçı quldur dəstələri cənub bölgəsində ağalıq edirdilər. Şimalda Sadval fəallaşmışdır. İqtidar özünü qorumaq məqsədi ilə Milli Ordu hissələrini cəbhə bölgəsindən çıxarmaları nəticəsində erməni təcavüzkarlarının Azərbaycanın yeni-yeni yaşayış məntəqələrini işğal etməsinə şərait yaranırdı. Müstəqilliyini yenicə əldə etmiş Azərbaycan bir dövlət kimi dağılmaq, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi qarşısında qalmışdı. Ölkə ərazisi etnik parçalanma, xalqımız vətəndaş müharibəsi kimi real təhlükə qarşısında qalmışdır.

Belə bir vəziyyətdə Azərbaycan xalqı Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması tələbini daha qətiyyətlə irəli sürdü. Hər gün Azərbaycanın müxtəlif yerlərindən Naxçıvana nümayəndələr yollanır, teleqramlar göndərilir, Heydər Əliyev hakimiyyətə, çətin vaxtda xalqın xilasına çatmağa dəvət edilirdi. Xalq yeganə çıxış yolunu öz böyük oğlunun şəxsiyyətində, qətiyyət və zəkasında görürdü. Xalq və tarix qarşısında məsuliyyət hissindən qorxuya düşən, o biri tərəfdən özünün yaratdığı problemlər məngənəsindən çıxış yolu tapa bilməyən iqtidar xalqın bu haqlı tələbinin qarşısında davam gətirə bilmədi. İyunun 9-da Heydər Əliyev Bakıya gəldi, artıq ilk təzahürləri meydana çıxmış vətəndaş müharibəsi alovunu söndürmək üçün Gəncəyə getdi, böyük çətinliklər və iradi qüvvə bahasına böhranın səngidilməsinə nail oldu. 1993-cü il iyunun 15-də müstəqil Azərbaycanın siyasi tarixinin ən məhsul və şanlı günlərindən biri yaşandı. Azərbaycan Respublikası Milli Məclisinin iclasında Heydər Əlirza oğlu Əliyev Ali Sovetin sədri seçildi.

Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması əslində onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi-bu, sözün əsil mənasında, ”ömrümün qalan hissəsini də xalqıma qurban verirəm” deyən böyük şəxsiyyətin öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.Əvvəlki hakimiyyətdən Heydər Əliyevə son dərəcə ağır miras qalmışdır-siyasi oyunlara və hakimiyyət çəkişmələrinə cəlb edilmiş ordu öz döyüş qabiliyyətini itirmişdir, naşılıq və səriştəsizlik nəticəsində dövlət aparatı dağılmış, idarəetmə və nəzarət funksiyasından məhrum olmuşdur. 1993-cü ilin iyun günlərində Azərbaycan təkcə siyasi, hərbi, iqtisadi deyil, həm də mənəvi böhran içərisində idi, cəmiyyətdə ümidsizlik və inamsızlıq əhval-ruhiyyəsi kök atmağa başlamışdır. Heydər Əliyevin qarşısında yalnız ölkəni böhran vəziyyətindən çıxarmaq deyil, həm də xalqın geniş təbəqələrini Azərbaycan dövlətçiliyi ideyası ətrafında birləşdirmək, ona ümid və inam aşılamaq, qətiyyət və mübarizlik təlqin etmək vəzifəsi dayanırdı.

*Ardı Səh. 12*

# Milli Qurtuluşun memarı

Əvvəli Səh.11

Azərbaycan dövlətçiliyinin xilaskarı kimi yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev öz sarsılmaz iradəsi, əzmi, zəngin dövlətçilik təcrübəsi və siyasi fəhmi ilə tezliklə bu mühüm vəzifələrin öhdəsindən gəlməyə tam qadir olduğunu göstərdi. 1993-cü ilin avqustunda Azərbaycanın ərazi bütövlüyünü cənubdan təhdid edən oyuncaq ”Talış-Muğan Respublikası” iddiasına xalqın iradəsi ilə silah işlədilmədən son qoyuldu. Böyük çətinliklərə baxmayaraq, xalq güclü şəxsiyyətin, böyük dövlət xadiminin, Qarabağ problemi də daxil olmaqla Azərbaycan xalqı və dövlətçiliyi qarşısında duran mühüm problemləri həll etməyə qadir şəxsiyyətin siyasi hakimiyyətə qayıdışından sonra sabaha daha böyük ümid və inamla baxmağa başladı. Məhz bu ümid və inamla Azərbaycan xalqı 1993-cü il oktyabrın 3-də yekdilliklə Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi.Siyasi hakimiyyətə qayıtdığı ilk gündən Heydər Əliyev elə bir dövlət qurmağa başladı ki, bu dövlət həm özünü, həm də vətəndaşlarını qorumağa tam qadir olduğunu dönə-dönə sübut etmişdir. Azərbaycan dövlətçiliyinə qarşı 1994-cü ilin oktyabrında və 1995-ci ilin mart ayında qaldırılan qiyamlar Prezidentin və xalqın yekdil iradəsi ilə dərhal yatırıldı. Xüsusilə 1995-ci ilin martında Xüsusi təyinatlı polis dəstəsindən istifadə etməklə daxildəki barışmaz müxalifətin və xaricdəki havadarlarının fəal yardımı ilə Heydər Əliyev hakimiyyətini devirmək, Azərbaycanda oyuncaq Dövət Şurası qurmaq və ölkənin müstəqilliyinə son qoymaq cəhdləri prezident tərəfindən Azərbaycanın siyasi tarixində bənzəri olmayan soyuqqanlıq və qətiyyətlə dəf olundu. Prezidenti suiqəsd yolu ilə aradan götürmək və beləliklə də onun yürütdüyü Azərbaycanın dövlət müstəqilliyi siyasətinə son qoymaq istəyən qara qüvvələrin əl atdığı qeyri-insani üsullar heç bir nəticə vermədi və xalq tərəfindən sonsuz nifrətlə qarşılandı. 1988-ci ildən bəri dəfələrlə özünün dövlət və hökumət başçılarına qarşı mitinqlər, nümayişlər, piketlər düzəldən xalq ilk dəfə Heydər Əliyevin Prezidentliyi dövründə legitim dövlət hakimiyyətini, legitim Prezidenti müdafiə üçün izdihamlı mitinqə toplaşdı. Heydər Əliyev xalqın Prezidenti olduğunu, xalq isə ona olan dərin hörmət və məhəbbətini sözdə deyil, əməldə nümayiş etdirdi.1993-cü ilin sonu - 1994-cü ilin əvvəllərində Azərbaycan ordusunun cəbhədəki uğurları, 1994-cü ilin mayında atəşkəs haqqında razılığın əldə edilməsi, həmin ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə ”əsrin müqaviləsi”nin bağlanması, dövlət aparatının təkmilləşdirilməsi və Milli Ordunun qurulması, ölkədaxili vəziyyətin sabitləşməsi, dünya miqyasında Azərbaycana marağın artması və dünyanın iri dövlətlərinin Azərbaycanın haqq işini dəstəkləməyə başlaması, mahir siyasətçinin Lissabon sammitində siyasi qələbəsi, Azərbaycan Prezidentinin uğurlu xarici səfərləri bu inamı daha da qüvvətləndirir. Son dərəcə mürəkkəb və qarışıq bir şəraitdə siyasi hakimiyyət sükanı arxasına keçən Heydər Əliyev qısa müddət ərzində Azərbaycanı öz vətəndaşları üçün sakitliyin, vətəndaş həmrəyliyinin, əmin-amanlığın hökm sürdüyü, demokratik təsisatların fəaliyyəti üçün geniş şərait yaradıldığı bir ölkəyə, xarici sərmayəçilər üçün isə əlverişli imkanlar açan, hərtərəfli əməkdaşlığa hazır olan bir tərəfdaşa çevirdi. Fəlakət qarşısında qalan Azərbaycan güclü Ümummilli liderin əzmi və iradəsi ilə düşdüyü ağır vəziyyətdən qurtardı, qısa müddət ərzində beynəlxalq birliyin tamhüquqlu üzvlərindən birinə çevrildi. Dünya siyasətçiləri arasında öz yeri olan Azərbaycan Prezidenti böyük nüfuzu və siyasi iradəsi sayəsində rəhbəri və qurucusu olduğu dövlətə də belə bir nüfuz qazandırmağa nail oldu. Bir əsrdə ikinci dəfə milli dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qalan Azərbaycan xalqı yalnız Ulu öndərin dühasına arxalanaraq, öz dövlətini qorudu, qurdu və möhkəmləndirdi. Xalq öz böyük, sınanmış liderinin sayəsində milli qurtuluşa nail oldu.Ümummilli lider dövlət quruculuğu sahəsində başladığı böyük işi məntiqi şəkildə davam etdirərək, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasına rəhbərlik etdi. Azərbaycanın siyasi tarixində yeni bir era açan və onun dövlət müstəqilliyinin, cəmiyyətdə insan azadlığının və demokratik dəyərlərin əsas qarantına çevrilən bu Konstitusiya 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edildi. İlk dəfə olaraq demokratik şəraitdə çoxpartiyalılıq əsasında Azərbaycan parlamenti - Milli Məclisi seçildi. Azərbaycan Respublikası dünyanın azad, suveren, müstəqil dövlətləri arasında özünə layiq yerini tutdu.Yaxın tarixi keçmişin bütün çətinlik və məhrumiyyətlərini öz gözləri ilə görmüş Azərbaycan xalqı 1993-cü il iyunun 15-dən sonra ölkəsi və özü üçün tamamilə yeni bir tarixin yazıldığını və yaşandığını görür və bu onun öz liderinə olan inamını, sevgisini qat-qat artırır.Tale elə gətirdi ki, Azərbaycanın XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyin qorunması və möhkəmləndirilməsi kimi müstəsna əhəmiyyət daşıyan missiya da hələ Sovet dönəmində respublikamızın gələcək inkişafı üçün fundamental əsaslar yaradan Ulu Öndərin üzərinə düşdü. Heydər Əliyev xilaskarlıq missiyasına Naxçıvandan başladı. 1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyev xalqda müstəqillik uğrunda mübarizə əzmini möhkəmləndirməyə çalışırdı. Onun çağırışı ilə Naxçıvanın 1991-ci il martın 17-də keçmiş Sovet ittifaqının saxlanması ilə bağlı keçirilən referenduma qatılmaması Azərbaycan xalqının müstəqillik ideyalarına inamını artırdı, insanlarda böyük mübarizə əzmi yaratdı. Halbuki respublikanın o vaxtkı rəhbərliyinin təhriki ilə həmin saxta referenduma Azərbaycan da qoşulmuşdur. Zaman Heydər Əliyevin uzaqgörənliyini bir daha təsdiqlədi. Referendumdan cəmi bir neçə ay sonra-avqustun 19-da keçmiş SSRİ-də ”QKÇP” adını alan dövlət çevrilişinə cəhd oldu. Bundan sonra hadisələr dönməz xarakter aldı, keçmiş İttifaq, onunla bərabər də kommunist partiyası dağıldı.

Ötən əsrin 90-cı illərinin əvvəllərində xalq ölkədə tüğyan edən hərc-mərclikdən, iqtidarın yarıtmaz siyasətindən yorulmuşdur. Xalqımızın sağlam qüvvələri və ziyalılar Heydər Əliyevə müraciət edərək Onu xalqımızı düçar ola biləcəyi bəlalardan xilas etməyə çağırdılar. 1992-ci il oktyabrın 24-də ziyalıların müraciətinə cavab məktubunda Ulu Öndər mövcud reallıqları dərindən təhlil edərək bu partiyanın yaradılmasına razılıq verdi. Lakin o zamankı hakimiyyət nümayəndələri partiyanın təsis konfransını Bakıda keçirməyə imkan vermədilər və konfrans Naxçıvanda baş tutdu. Beləliklə, noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Azərbaycanın siyasi, ictimai, dövlət həyatında yeni dövrün başlanğıcı qoyuldu. Ulu Öndər Heydər Əliyev ona ünvanlanan çoxsaylı müraciətləri, xalqın çağırışını cavabsız qoymayıb Bakıya gəldi və dahiyanə bir zəka, möhkəm iradə ilə xilaskarlıq missiyasını yerinə yetirdi. Ulu Öndər 13 iyunda parlamentdə çıxış etdi, Gəncəyə gedib oradakı vəziyyətlə tanış oldu. 15 iyunda isə Ulu Öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi. Beləliklə, respublikamız müstəqilliyini itirmək təhlükəsindən qurtuldu. Azərbaycanın sabitlik və inkişafla səciyyələnən qurtuluş tarixi başladı. Xalqın böyük etimadı əsasında Ulu Öndər Heydər Əliyev ilk dəfə 1993-cü il oktyabrın 3-də, ikinci dəfə isə 1998-ci il oktyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu Öndər qısa müddətdə siyasi sabitliyi bərqərar etdi, dövlət çevrilişi cəhdlərinin qarşısını aldı, cəbhədə atəşkəsə nail olundu, Azərbaycanın beynəlxalq əlaqələri inkişaf etməyə başladı. Ümummilli Lider iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın Xəzər dənizi hövzəsində malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib sayırdı. 1994-cü il sentyabr ayının 20-də dünyanın 8 aparıcı ölkəsinin 13 transmilli neft şirkəti ilə ”Əsrin müqaviləsi” adını almış möhtəşəm layihə imzalandı. Bununla da Ulu Öndər Azərbaycanın bugünkü və gələcək uğurlarının möhkəm bünövrəsini qoydu.

Ümummilli liderimizin rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunması tarixi hadisə idi. Müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişafının hüquqi əsaslarını müəyyən etməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı. Ümumilikdə, Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutdu, beynəlxalq təşkilatlarda uğurla təmsil olundu,dünyada etibarlı tərəfdaş kimi tanındı, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirdi. Bəzi tarixi günlər xalqın gələcəyini müəyyən edən böyük başlanğıcların əsasını qoyur. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyun günü böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik gündür. Vətənini, xalqını sevənlər, çətin günlərin ağrılarını, dəhşətlərini yaşayanlar, hadisələri görənlər üçün 15 iyun əsl Qurtuluş Günü, Azərbaycan dövlətçiliyinin ölüm-dirim mübarizəsinin tarixidir. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası müstəqilliyini elan etdi-müstəqilliyin ilk illərində ölkədə özbaşınalıq hökm sürürdü, orduda vəziyyət ağır idi, erməni təcavüzü güclənirdi, Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı-bu dövrdə gərginləşən siyasi vəziyyət, əhalinin ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin gəlişi ilə ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu.

Ümummilli liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı, problemlər mərhələlərlə həll olundu, siyasi sabitlik yarandı. Ümummilli lider ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaratdı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə başladı. Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami ordunun yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli liderin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim kimi yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanın hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olub. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Liderimizin siyasi kursuna sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Bu yol ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Ümummilli lider Heydər Əliyev vaxtilə müdrikcəsinə demişdir: ”Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz”. Bu inam, bu qətiyyət Qurtuluş Gününün mənası və verdiyi ibrət dərsləridir. Bu onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yola, irəliyə aparacaqdır. Dahi şəxsiyyətin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri etdi, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrildi. Müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu oldu.Bu gün müasir müstəqil Azərbaycan Ümummilli liderin ideyaları əsasında uğurla inkişaf edir. Ümumiyyətlə, ölkəmizin hər birimizdə qürur doğuran reallıqları ilk növbədə siyasi varisliyin təmin edilməsi ilə bağlıdır. Biz ayrı-ayrı ölkələrin timsalında siyasi kursun vaxtaşırı dəyişməsinin fəsadlarını dəfələrlə müşahidə etmişik - belə hallar anarxiyaya, iqtisadi tənəzzülə, sosial vəziyyətin ağırlaşmasına və bu kimi digər mənfi meyillərə yol aça bilir. Azərbaycanın xoşbəxtliyi ondadır ki, ölkəmizdə Ulu öndərin əsasını qoyduğu siyasi kurs son illərdə Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirilir. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü aydın göstərir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır. Prezident İlham Əliyev hələ ilk dəfə dövlət başçısı seçilərkən bəyan etmişdi ki, onun əsas vəzifəsi Heydər Əliyev siyasi kursunu davam etdirmək olacaqdır. Bu gün ölkəmizin hər bir vətəndaşı güclü Azərbaycanla qürur duyur. Son illərdə dünyada ən yaxşı iqtisadi inkişaf göstəricilərindən biri məhz Azərbaycanda qeydə alınmışdır. Qlobal reytinq agentlikləri, o cümlədən Davos İqtisadi Forumu, Dünya Bankı milli iqtisadiyyatımızın durumu və perspektivləri ilə bağlı müsbət rəylər ifadə etmişlər. Respublikamızın iqtisadi, maliyyə potensialının genişlənməsi ilə paralel şəkildə, beynəlxalq nüfuzu da əhəmiyyətli dərəcədə artmışdır, qısa müstəqillik tarixində Azərbaycan dünyanın 155 ölkəsinin dəstəyini qazanaraq 2012-2013-cü illərdə BMT TŞ-nın qeyri-daimi üzvü seçilmişdir. Hazırda respublikamız Türk Şurasına, sıralarında 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına inamla sədrlik edir ki, bu da ölkəmizə beynəlxalq miqyasda böyük inam bəslənildiyinin təsdiqidir. Bu gün Azərbaycan yeni neft strategiyasının uğurla reallaşdırılması sayəsində bölgənin enerji xəritəsini tamamilə dəyişməyə nail olmuş, həmçinin Avropanın enerji təhlükəsizliyində böyük çəkiyə malik bir ölkəyə çevrilmişdir. Zəruri infrastrukturun yaradılması sayəsində Azərbaycanın istər Şimal-Cənub, istərsə də Şərq-Qərb nəqliyyat dəhlizində strateji məntəqə kimi rolu əhəmiyyətli dərəcədə artmışdır. Bütövlükdə, müasir müstəqil Azərbaycan Ulu Öndərin davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, ardıcıl nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir.Ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən, düşünülmüş və qətiyyətli siyasəti sayəsində Azərbaycanın əldə etdiyi uğur və nailiyyətlər onu söyləməyə əsas verir ki, Ulu öndərin bizlərə miras qoyduğu müstəqil dövlət əmin əllərdədir. Demokratik dövlətdə siyasət xalq naminə və xalqın vasitəsilə həyata keçirilir. Ümummilli liderin qətiyyətinin xalqa ruh yüksəkliyi gətirdiyi, özümüzə inamımızı dirçəltdiyi, milli şüuru oyatdığı kimi, ölkə başçısı da həmin inamın davamlı olmasını gördüyü işlərlə təmin edir. Bu gün əminliklə deyə bilərik ki, respublikamızın tarixində Heydər Əliyevin şəxsiyyəti həlledici rol oynamış, zaman keçdikcə, dövlətimiz inkişaf edib müstəqilliyini möhkəmləndirdikcə Milli Qurtuluş Gününün tarixi əhəmiyyəti və dəyəri daha da aydın dərk olunacaqdır. İllər ötsə belə Azərbaycan xalqı 15 iyun tarixini yenə də qürur və şərəf günü kimi qəbul edəcəkdir-o tarixi bizlərə bəxş edən dahi insanı eyni sevgi, hörmət və ehtiramla xatırlayacaqdır.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu öndərin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilmiş, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılmışdır. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir-Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth etməkdədir.

***Yaşar Əhmədov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin ”Humanitar fənlər” kafedrasının dosenti***

# Atraksionların təhlükəsizliyinə kim cavabdehdir?

***Adrenalin hormonu, xüsusilə, təhlükəli və həyəcanlı vəziyyətlərdə ifraz olunmağa başlayır və insanın qanına qarışır. Adrenalin asılılıq xüsusiyyətinə malikdir. Bu səbəbdən adrenalin həvəskarları macəraya getməkdən çəkinmirlər. Adrenalin ehtirası olan insanlar təhlükəli idman və hobbi ilə məşğul olmaq üçün həddindən artıq həvəsə malikdirlər. Qorxu anında ifraz olunan adrenalin hormonu insanın qorxusuna qalib gəlməsinə və həzz almasına şərait yaradır. Adrenalin hormonu ilə birlikdə qan axını sürətlənir və ürək döyüntüləri artır.***

Bütün bu təhlükəli fəaliyyətlərin arxasınca gedən insanların, əslində, axtardıqları duyğulardır. Onlar bu hərəkətlərin onlara verdiyi hissi təqib edirlər, ona görə də hadisə ilə bağlı risk və təhlükə onlar üçün o qədər də vacib deyil. Bir sözlə, o həyəcanı, qorxunu, qəribə hissi yaşamaq üçün hər şeyi riskə atırlar. Psixoloqlar bu insanları "həyəcan təqibçiləri" adlandırırlar.

Həyəcan dalınca gedən bu şəxslərdə tez-tez gördüyümüz xüsusiyyətlərə qısaca nəzər salaq.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

- Həyəcan qovmaq hissi, əslində, hər bir insanda var, lakin bu emosiya qorxu və narahatlığa qalib gələndə tam adrenalin düşkünü olursunuz.

- Adrenalin aludəçiləri, ilk olaraq, edəcəkləri bir fəaliyyətdə yaşayacaqları həyəcana baxar, biz normal insanlar isə ilk növbədə təhlükə və riskləri qiymətləndiririk.

- Həyəcan təqibçilərini dörd hissəyə bölmək olar:

*Təcrübə etmək istəyənlər*
*Həyəcan və macəra yaşamaq istəyənlər*
*Gündəlik sakit həyatdan sıxılanlar*
*Qaydaları pozmaq istəyənlər*

- Həyəcan axtaran insanların heç də hamısı bu fəaliyyətləri yalnız təhlükəli olduğu üçün etmir, onlar üçün bunun onları necə hiss etdirməsi və digər insanların həmin fəaliyyətə təhlükəli baxışı önəmli deyil.

- Həyəcan dalınca qaçmaq ümumiyyətlə "gənc iş"dir və bu cür işlərlə məşğul olmaq yaşlı insanlara yaxşı təsir etmir.

- Adətən həyəcan axtaran adrenalin aludəçilərinin böyük əksəriyyəti kişilərdir. Bunun səbəbi qadınların daha məntiqli və rasional düşünməsidir.

- Araşdırmalara görə, adrenalinə aludə olmaq, alkoqol və narkotik asılılığını tətikləyən faktor kimi önə çıxır.

- Adrenalin asılılığı olan insanlarda ani partlayışlar və impulsiv davranışlar tez-tez görünə bilər.

- Həyəcan təqibinin genetik olduğu düşünülür, buna görə də macəraçı bir ailə üzvünüz varsa, sizin də buna meyil etməyiniz təəccüblü deyil.

- Bu insanlar səyahət, görməli yerləri gəzmək, macəra, ekstremal idman və s. fəaliyyətlərdən daha çox zövq alırlar.

- Bundan əlavə, bu insanlarda "mühafizəkarlıq" çox az müşahidə olunur və onların bir çoxu dini inanclardan uzaq bir həyat sürürlər.

- Onlar yeniliklərə, yeni şeyləri sınamağa o qədər açıqdırlar ki, yeni texnikaların sınaqdan keçirilməsində, təcrübələrdə və s. bu adamları hər zaman görürük.

- Bu xüsusiyyətlər karyera seçimlərində də ön plana çıxır və çevik, ofisə qapalı olmağı tələb etməyən, hətta risk daşıyan peşələr bu insanlar üçün daha cəlbedicidir. Məsələn, sahibkarların böyük əksəriyyətində bu xüsusiyyətin üstünlük təşkil etdiyini söyləsək yanılmarıq.

*Dünyadakı təhlükəli istirahət mərkəzləri və parklar:*

### Kings Island, Mason, Ohayo

9 iyun 1991-ci il Kings adası əyləncə parkının tarixində qara gün kimi xatırlanır. Belə ki, hər şey ziyarətçilərdən birinin parkdakı gölməçəyə düşməsi ilə başlayıb. Yıxılanın dostu, 20 yaşlı Uilyam Hayskot və "Ada"nın əməkdaşı 20 yaşlı Darrell Robertson xilas etməyə çalışsalar da, sonda hər üçünü elektrik cərəyanı vurub. Bu, Hayskotun ölümü ilə nəticələnib. Daha sonra, yeni cəmi bir saat sonra daha bir facie baş verib və 32 yaşlı Candy Taylor ən ekstremal attraksionlardan birindən yıxılaraq yerə çırpılaraq öldü.

Şayiələrə görə, park o vaxtdan bəri qəribə hal alıb. Belə ki, müştərilər dəfələrlə mavi paltarda xəyalpərəst bir qız və digər qəribə personajlar gördüklərini bildirdilər.

### Oakwood Theme Park, Pembrokeshire, Uels

16 yaşlı Heyli Uilyams 2004-cü ilin aprelində ailəsi ilə birlikdə əylənmək üçün Oakwood əyləncə parkına gəldi. Roller sahil gəmisinə minərkən avtomobildən yıxılan Heyli 30 metr hündürlükdən yıxılaraq dəhşətli şəkildə xəsarət alıb. İstintaq müəyyən edib ki, park işçiləri avtomobil sürməyə başlamazdan əvvəl müştərilərin qoşqularını və təhlükəsizlik kəmərlərini mütəmadi olaraq yoxlamayıb, nəticədə Oakvud səhlənkarlığa görə 250.000 funt sterlinq (təxminən 384.000 dollar) cərimə olunub. Heyli ilə baş verən insidentdən sonra attraksion bir il müddətinə bağlanıb.

### Fəaliyyət Parkı, Vernon, Nyu-Cersi

Burada müxtəlif illərdə baş vermiş bir neçə qəza nəticəsində "Fəaliyyət parkı"nın reputasiyası zədələnib. Bu, bir neçə amillə bağlıdır: attraksionların dəhşətli texniki vəziyyəti, diqqətsiz işçilər və rəhbərliyin tam nəzarətsizliyi. Parkın bütün tarixi ərzində burada ən azı altı nəfər həlak olub və çoxlu sayda insan yaralanıb. Ölənlərdən biri elektrik cərəyanı vurmasından, biri infarktdan, üç nəfər suda boğularaq ölüb, digəri isə onun olduğu turistik məkanlardan birinin maşını relsdən çıxaraq aşıb.



1998-ci ildə Fəaliyyət Parkı çoxsaylı sağlamlıq iddialarına görə bağlandı. Bir neçə il sonra adı "Dağ dərəsi" olaraq dəyişdirildi və müvafiq səviyyədə təhlükəsizlik təmin edilərək və məsul işçilər işə götürülərək yenidən açıldı.

### Discovery Bay, Orlando, Florida

Bu park böyüklər və uşaqların sözün əsl mənasında dəniz heyvanları dünyasına qərq ola biləcəyi, tropik balıqlarla ünsiyyət qura və delfinlər, su samuru və meymunlarla oynaya biləcəyi nəhəng əyləncə məkanıdır.

Parkın möhtəşəm hovuzlarında üzməyə gələn 59 yaşlı britaniyalı turist Keyt Klark bunun onun üçün necə bitəcəyini bilmirdi. Klark hemofiliyadan (qan laxtalanması) əziyyət çəkirdi və mərcan parçası ilə ayağını amputasiya edə bildi. Bir neçə gün sonra Keytin vəziyyəti kəskin şəkildə pisləşdi, o, İngiltərəyə evə göndərilməzdən əvvəl hava limanında huşunu itirdi. Klark şəxsi təyyarə ilə İngiltərəyə aparıldı, burada həkimlər onun həyatını xilas etmək üçün əlindən gələni etdilər, lakin kişi sepsisdən öldü.

### Siklon, Coney Island, Nyu-York

1920-1930-cu illərdə onun populyarlığı daha yüksək idi, lakin məşhur köhnə atraksionlar vəziyyəti bir qədər dəyişdi. Dünyanın ilk roller sahil gəmisi ən azı üç nəfəri öldürdü, sonuncu qurban 2007-ci ildə attraksionun ilk döngələrindən birində boynunu sındıran 53 yaşlı Keith Shirasawa idi.

### Gulliver's World Theme Park, Warrington, İngiltərə

Daun sindromlu 15 yaşlı Salma Səlim üçün həyatında gördüyü son şey Dünya Parkına getmək olub. Dönmə çarxına minmək Salmanın təxminən altı metr hündürlükdən yıxılmasına və qısa müddət sonra aldığı zədədən dünyasını dəyişməsinə səbəb olub.

### Six Flags Kingdom of Kentucky, Louisville, Kentucky

Kentukki ştatının ən məşhur əyləncə parklarından birində yerləşən Supermen Power Tower səyahəti bir müştərinin ölümü ilə nəticələnib. 21 iyun 2007-ci ildə 13 yaşlı Caitlin Lesitter bilet alsa da, Qüllənin onun məzarı olacağını gözləmirdi. Caitlin uçuşu zamanı kabellərdən biri qoparaq boynuna və ayaqlarına dolaşıb. Gənc sərnişin boynunu xilas edə bilib, lakin ayaqlarını düzəltməyə vaxt tapmayıb və ayaqları cırılıb. Cərrahlar qızın yalnız sol ayağını tikə biliblər və "Supermen Qülləsi" sökülüb.

### The Big Dipper, Bettersea Fun Fair, London, Böyük Britaniya

Bettersea əyləncə parkı 1951-ci ildə Böyük Britaniyaya həsr olunmuş festival çərçivəsində yarmarka keçirdi və burada roller sahil gəmisinin Britaniya versiyası olan Big Dipper attraksionunu ictimaiyyətə təqdim etdi. "Medveditsa" dövrümüzün ən dolama və qəribə "təpələrindən" uzaqda olsa da, itkisiz deyildi. Açılışından iyirmi ildən bir qədər çox vaxt keçdikdən sonra, 1972-ci ildə attraksionda dəhşətli qəza baş verdi: qatar vaqonlarından biri qarmaqdan çıxaraq əks istiqamətə yuvarlandı, nəticədə beş azyaşlı sərnişin həlak oldu. Məkanın böyüklər və uşaqlar arasında populyarlığı kəskin şəkildə azaldı və 1974-cü ildə o, fəaliyyətini dayandırdı.

### Dünyada baş verən dəhşətli atraksion qəzaları:

20 avqust 2008-ci il Mahaçqaladakı şəhər əyləncə parkında "Əjdaha" atraksionunda metal kabelin qırılması səbəbindən oturacaqlar yerə düşdü.

12 may 2008-ci il Velikiy Novqorod parkında şəhərdə gəzən Tula əyləncə parkının "Fantaziya" tamaşası zamanı karusel qəzaya uğradı. Nəticədə 11 nəfər yaralandı. Qəza texniki səbəblərdən baş verib. Karuselin adamlarının qaldırıcısında partlayan disk böyük hündürlükdən aşaraq digərlərinin ayaqlarını əzib.

2008-ci il mayın 1-də Moskva zooparkında insident baş verdi. Belə ki, uşaq qatarı relsdən çıxaraq aşıb. Qəza zamanı qatarda 8 uşaq olub, onlardan 6-sı yüngül xəsarətlər və sıyrıqlar alıb, 6 və 7 yaşlı iki qız isə xəstəxanaya yerləşdirilib.

23 aprel 2008-ci il Novosibirsk vilayətinin Berdsk şəhərinin mədəniyyət və istirahət parkında yeddi yaşlı uşaq "Ferris Wheel" attraksionundan yıxılaraq ölüb. Uşaq park əməkdaşlarının axşam saatlarında açıq və baxımsız qoyduğu attraksiona ekskursiya etmək qərarına gəlib. O, əli ilə kabinələrdən birini tutub. Lakin bir neçə dəqiqədən sonra uşağın əlləri stresə dözməyib, 26 metr hündürlükdən yıxılaraq hadisə yerində dünyasını dəyişib.

14 iyun 2006-cı il, Arxangelsk vilayətinin Severodvinsk şəhərində Dram Teatrının yaxınlığındakı ərazidə güclü külək üzərində uşaqların olduğu şişmə sürüşkəni aşırdı və beş nəfər yaralandı. Ən ağır xəsarətləri lap yüksəkdə olan uşaqlar alıblar.

1999-cu ildə Moskvanın Sokolniki parkında Caterpillar attraksionunun qəzaya uğraması nəticəsində beş uşaq xəsarət alıb. Elə həmin il Moskvanın Qorki parkında yerləşən "Uçan xalça" attraksionunda 5 tonluq qayığın altında qalan bir qadın öldü.

2002-ci ildə parkda Moskvada "Qorki qasırğası" karuselinin kortəbii dayanması nəticəsində uşaqlar da daxil olmaqla 8 nəfər xəsarət alıb.

2002-ci ildə Sankt-Peterburqda "Yeddinci cənnət" attraksionu 18 yaşlı gənci öldürüb. O, ayağındakı çırpıntılar səbəbindən 10 metr hündürlükdən asfalta düşüb.

2003-cü ildə Moskvada 21 yaşlı belarus Dmitri Qurinoviç Tarzankanın cazibəsində öldü. Belə ki, onun ayaqlarına bərkidilmiş elastik bant qırılıb və o, 60 metr hündürlükdən suya düşüb.

2004-cü ilin apreli Moskvada, Lianozovski parkında Sürpriz karuselinin dönməsi zamanı insanların olduğu fırlanan platforma çökdü. Hadisə nəticəsində 16 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, o cümlədən onurğa sütunu sınanlar olub.

2005-ci ildə Smolenskdə, "Loping" attraksionunda karusel işi zamanı 13 yaşlı uşaq bir əlindəki bandajı açaraq attraksiondan asfalta düşdü. Zərərçəkmiş bir ayağını dizinə qədər itirib, çoxsaylı sınıqlar və beyin silkələnməsi keçirib.

2006-cı il yanvarın 4-də Tver vilayətinin Bejetsk şəhərində facie baş verdi: 12 yaşlı yeniyetmə rəfiqəsi ilə şəhər parkına gəldi və orada Surprise attraksionunun platformasını döndərərək ora dırmaşmağa çalışdı. Nəticədə güclü zərbə alan oğlan bir neçə dəqiqədən sonra dünyasını dəyişib. Cazibənin qarşısı alınmadığı üçün facie baş verib. 8 may 2006-cı ildə Ufada Corsair attraksionunda nasazlıq baş verdi, nəticədə 22 nəfərin təxminən yarısı başıaşağı asılı qaldı. Ziyarətçilər yalnız iki saatdan sonra xilasedici qrupların köməyi ilə buraxılıblar.

### Azərbaycanda olan atraksion qəzaları:

21 iyun 2022-ci il: Gəncədə bulvar ərazisində fəaliyyət göstərən istirahət mərkəzindəki karuseldə baş verən qəza bir uşağın xəsarət alması ilə nəticələnib. Baş vermiş hadisə attraksionlarda təhlükəsizlik məsələsini yenidən gündəmə gətirib. Belə ki, "Amerikan təpəcikləri" adlı karuselə minən 12 yaşlı qız oturduğu arabanın qopması nəticəsində yerə yıxılıb və zədələnib. Xəstəxanaya yerləşdirilən qızın qabırğasının sındığı və digər xəsarətlər aldığı məlum olub. Həkimlər onun vəziyyətinin orta olduğunu bildiriblər. Attraksionu işlədən sahibkar isə iddia edir ki, bütün karusellərə vaxtında baxış keçirilir və texniki qulluq göstərilir. FHN -nin sənayedə işlərin təhlükəsiz görülməsi və dağ mədən nəzarəti dövlət agentliyinin əməkdaşı Tural Qocayev bildirib ki, həmin ərazidə yoxlama aparılıb. Texniki təhlükəsizlik haqqında qanunun və digər normativ hüquqi aktların pozulması aşkar edilib. Pozuntuların aradan qaldırılması üçün zəruri tələb qoyulub.

17 sentyabr 2019-cu il: Şəkidə əyləncə mərkəzində atraksiondan yıxılan qız əməliyyat olunub. 2003-cü il təvəllüdlü X.Durmuşova Şəki Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Sidik kisəsinin əməliyyatı üçün Şəkiyə Bakıdan həkimlər çağırılıb.

### Belə bir çox hadisələri sadalamaq olar.

Dənizkənarı Bulvar İdarəsinin mətbuat katibi Əfsanə Mehdiyeva: "Dənizkənarı Milli Parkda uzun müddətdir atraksionların olmamasının səbəbi var. Köhnələri sökülüb, çünki yeni nəsil atraksionlar gətiriləcək. Köhnə atraksionlar istifadəyə yararsız olduğu üçün sökülüb. İnsanların, xüsusilə də, azyaşlıların təhlükəsizliyi baxımından onların sökülməsi vacib idi. Yeni nəsil atraksionları gələcək və ilin sonuna qədər artıq Milli Parkda görmək mümkün olacaq. Qeyd edim ki, atraksionların ilkin hissəsi il sonuna qədər gələcək. İl sonuna qədər quraşdırılacaq atraksionlar son olmayacaq, yeniləri də əlavə ediləcək".

**Psixoloq Fidan Nizamova:** "İnsanlar qorxmağı sevirlər, çünki təhlükəli vəziyyətlər zamanı bədəndə dofamin hormonu ifraz olunur. Bir çox insan riski və onun gətirdiyi hissləri sevir.

Qorxu zamanı bədən yalnız stress hormonlarını, məsələn, adrenalin kimi deyil, həm də sevinc hormonu olan serotonini, həmçinin endorfinləri buraxır.

Bədən təhlükənin qeyri-real olduğunu və ya keçdiyini başa düşdükdə, biz sevinc, xoşbəxtlik, eyforiya dalğası hiss edirik - nə qədər böyük, canlı və təhlükəsizik!

Üstəlik, biz güc artımı yaşayırıq, çünki bədən qaçmağa və ya özünü mümkün qədər müdafiə etməyə hazırlaşır və sərbəst buraxılan enerji indi tam sürətlə gedir. İdarə olunan qorxu əylənməyin başqa bir yoludur.

Bu hobbi hətta ağıl daxilində istifadə olunarsa faydalı ola bilər. Qorxu bizi daha möhkəm və güclü edə bilir.

Həmçinin, bir çox psixoloqlar qorxu filmlərinə baxmağın özlərində mənfi emosiyalar toplamaq vərdişi olan insanlar üçün çox faydalı olması ilə razılaşırlar. Bu, yorğun psixika üçün bir növ rahatlamadır ki, bu da sonda ətrafınəs boşalmamağa kömək edəcək. Və nəhayət, qorxu insanları birləşdirir. Bu, sübut edilmiş faktdır. Güclü emosiyaların paylaşılması insanları bir araya gətirir. Beləliklə, müəyyən bir insanı sevirsinizsə, onu gəmiyə minməyə və ya qorxu filminə baxmağa dəvət edin. Yüksək ehtimalla bu, sizi dərhal daha da yaxınlaşdıracaq".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Fars-molla rejimi bəşəriyyətin varlığına təhlükə yaradır

Azərbaycanın beynəlxalq münasibətlər sistemində söz sahibi olması ölkəmizə qarşı bəzi dövlətlər tərəfindən qısqanclıq hissinin yaranmasına səbəb olur. Elə dövlətlər var ki, ölkəmizə qarşı ikili standartlardan çıxış edir, üzdə özlərini dost ölkə kimi göstərsələr də, əslində, Azərbaycanın dünyada artan gücü, yüksələn iqtisadi potensialı onları narahat edir. Regionda və dünyada əksər ölkələrin daxilində hakimiyyətlərlə xalq arasında dərin uçurum mövcuddur. Onlar bundan da qısqanırlar ki, Azərbaycan sabitlik adasıdır, sakit dövlətdir, təhlükəsizlik ən yüksək səviyyədə təmin olunub. Həm də Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə Ermənistanın 30 il ərzində işğal altında saxladığı torpaqlarını azad etməsi molla rejimini, eləcə də əmmaməli mollalar kimi düşünən qüvvələri ciddi narahat edir. Bu səbəbdən də, Azərbaycana qarşı məkrli və terrorizm siyasəti aparırlar. İngiltərə, Fransa və nəhayət, Tehranda səfirliyimizə edilən xain hücumları ölkəmizin dünyada artan nüfuzuna, gücündən və qüdrətindən narahat olmalarından irəli gəlir. 2023-cü ilin yanvarın 27-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə edilən terror hücumu nəticəsində bir nəfər səfirlik əməkdaşı şəhid edildi, iki nəfər isə ağır yaralandı. Bu günə qədər də molla rejimi səfirliyə edilən xain hücuma düz-əməlli izahat verməyib, həm də dövlət səviyyəsində üzr istənilməyib. Azərbaycan səfirliyinin ərazisi Azərbaycan Respublikasının ərazisi sayıldığı üçün terror aksiyası, eyni zamanda, Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı qəsd kimi qəbul edilməli, sifarişçilərin və icraçıların tez bir zamanda Azərbaycan Respublikasının ədalət məhkəməsi qarşısında dayanması istiqamətində beynəlxalq müstəvidə məsələ qaldırılmalıdır. Azərbaycan səfirliyinə hücum, baş verən terror aksiyası ilə bağlı Beynəlxalq Məhkəməyə müraciət olunmalı, 1961-ci il Vyana Konvensiyasının 22, 23, 24, 25, 27, 29, 31, 37, 47-ci maddələrinin, Konsulluq münasibətləri haqqında 1963-cü il Vyana Konvensiyasının 28, 30, 31, 37, 47-ci maddələrinin, Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın 4 və 7-ci maddələrinin və BMT Nizamnaməsinin 3 və 4-cü fəsillərinin 2 və 33-cü maddələrinə əsasən, molla rejiminə qarşı iddia qaldırılmalıdır. Azərbaycanın Tehrandakı səfirliyinə edilən hücum BMT, NATO, Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, o cümlədən 60-dan çox ölkənin dövlət başçıları, xarici işlər nazirləri və səfirləri tərəfindən terror aktı kimi pislənmişdir.






## Fars-molla rejimi səfirliyimizə təşkil etdiyi xain hücuma görə hələ də Azərbaycan xalqından üzr istəməyib

Görünən ondan ibarətdir ki, fars-molla rejiminin beynəlxalq hüquq baxımdan səfirliyimizə təşkil etdiyi terror hücumuna görə Azərbaycan xalqından rəsmi şəkildə üzr istəməməsi və bu azmış kimi terrorçuya müəyyən məsələlərdə himayədarlıq etməsi onu deməyə əsas verir ki, terror molla rejiminin dövlət siyasətidir. Bu isə birbaşa molla rejiminin cani və quldur bir rejim olduğunu təsdiqləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin Tehrandakı səfirliyinə xain hücumla əlaqədar tvitterdə paylaşımda Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayıb və bu hücumu beynəlxalq hüquq normalarına sığmayan qatı cinayət olaraq qiymətləndirib: "Bu terror aktının tezliklə araşdırılacağını və terrorçuların cəzalandırılacağını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!". Fars-molla rejiminin vəhşi bir rejim olduğu bütün parametrlər üzrə özünü təsdiq edir. Məlum olur ki, Ermənistan qədər fars-molla rejimi də dünyada sülhə və təhlükəsizliyə təhdid yaradır. Bu baxımdan, hər iki terrorçu dövlətin mövcudluğuna son qoyulmalıdır. Yalnız bu halda bəşəriyyət dinclik tapa bilər. Fikir verin terrorçu fars-molla rejimi səfirliyimizə etdiyi xain hücumun ardınca sərhədlərimizə yaxın ərazilərdə hərbi təlimlər keçirməyə çalışdı. Ermənistana arxa durmaqla Zəngəzur dəhlizinin açılmasına qarşı çıxan hərəkətlərə yol verir. Bununla yanaşı, Tehrana, Təbrizə, Ərdəbilə və digər tarixi Azərbaycan ərazilərinə səfərlər edən soydaşlarımız oğurlanaraq zindanlara atılır, sonradan isə onlara qarşı qurama ittihamlar irəli sürülür. Xüsusilə də, ittihamların əsas hissəsini casus adının verilməsi olur. Almaniyada təhsil alan və sevdiyi qızın çağırışı ilə molla rejiminin nəzarətində olan torpaqlara səfər edən Fərid Səfərlinin həbs edilərək 3 ay sonra ona qarşı casus ittihamının irəli sürülməsi terrorçu rejimin qaniçən bir rejim olduğunu göstərir.

## Güney Azərbaycanın müstəqilliyinə qovuşması qaçılmazdır

Əminliklə demək olar ki, gec-tez molla rejiminin varlığına son qoyulacaq və F.Səfərli kimi insanlarımız azadlıqlarına qovuşacaqlar. Yəni, tarixin yenidən təkrarlanması qaçılmazdır. Bu halda tarixi şans əldən buraxılmayacaq. Cənubu Azərbaycan müstəqilliyinə qovuşmaqla əbədi mövcudluğunu qoruyub, saxlayacaq. Fakt bidir ki, 1905-ci il Səttərxan və Şeyx Məhəmməd Xiyabani hərəkatı, 1945-ci ildə isə Pişəvəri inqilabı baş verib. Pişəvəri hərəkatı güneyli soydaşlarımızın parlaq dövlətçiliklərini qurmaqla yekunlaşdı. Bu dövlət bir il yaşadı. Təəssüf ki, o vaxtkı SSRİ rəhbərliyinin İran rejimi ilə sıx işbirliyi milli hökumətin süqutu ilə yekublaşdı. Bir illik dövlətçilik tarixində Pişəvəri hökuməti qadınlarla kişiləri bərabər hüquqlara malik olmasına dair qanun qəbul etdi. Milli Məclis yaradıldı, Milli Ordu formalaşdı, Dövlətin bayrağı yaradıldı, demokratik seçki qanunu qəbul edildi, Azərbaycan dili rəsmi dövlət dili elan olundu. Dilimiz rəsmi dövlət dili oldu. Demokratik milli hökumət devrilsə də, ümidlər sonsuzdur ki, Güneydə müstəqil, azad dövlət yaradılacaq.

Bu gün Güneydə 6 aya yaxındır ki, davam edən və bütün dünya azərbaycanlılarının dəstək verdiyi mücadilə onu deməyə əsas verir ki, bəlkə də yaxın vaxtlarda milli dövlətin yaradıldığı elan olunacaq. Fars-molla rejimi ilə erməni qardaşlığının tarixi uzun illərə gedib çıxır. Əsasən də, 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi molla rejiminin ölkəmizə qarşı düşmən siyasətinin daha amansız forma almasına rəvac verdi. Hər vəchlə ermənilərə hərbi-siyasi dəstək göstərməklə torpaqlarımızın işğal edilməsinə yardımçı oldu. Hətta ermənilərlə müəyyən siyasi oyunlar qurmaqla Azərbaycanın başını qarışdırmağa və bununla da ərazilərimizin zəbt edilməsinə köməklik göstərdi. Yada salmaq lazımdır ki, 1992-ci ildə Şuşa işğal olunanda Azərbaycan Respublikasının Milli Məclisinin sədri, eləcə də prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov Tehranda idi. Orada Ermənistan prezidenti Ter-Petrosyanla cəbhədə atəşkəsə nail olunması ilə bağlı müqavilə imzalayırdı. Belə məqamda Şuşa işğal olundu. Bu, nə deməkdir? Yəni, İran Yaqub Məmmədovu aldadaraq Tehrana apardı, ermənilər də asanlıqla Şuşanı işğal etdilər. 20 noyabr 1991-ci ildə Qarakənd səmasında Azərbaycanın dövlət rəsmilərinin və Rusiya hərbçilərinin olduğu vertolyotun vurulmasında da molla rejiminin əli vardı. Sübut olunub ki, bu hadisəni törədən 17 nəfərdən biri "SEPAH"-ın əməkdaşıdır. Həmin terror aktını törədən şəxsləri molla rejimi maneəsiz öz ərazisinə keçirdi. İşğalın davam etdiyi dövrdə molla rejimi Ermənistanı bu və ya digər formada dəstəkləyirdi. Hər gün ermənilər açıq şəkildə Xudafərin körpüsü vasitəsi ilə Tehrana və digər şəhərlərə gedib gəlirdilər. Bu, həm də onu göstərirdi ki, molla rejimi burada Rusiyanın maraqlarını təmsil edirdi. O zaman Ermənistan Rusiya üçün İrana silah ötürməklə bağlı ən yaxşı yol hesab olunurdu. Müxtəlif silahlar, yardımları məhz Rusiya Ermənistan vasitəsi ilə Tehrana çatdırırdı. Molla rejimi özünü islam respublikası elan edib.

Bu respublikanın banisi ayətullah Xomeneyidir. Xomeneyidən qalma ideologiyaya görə, (bu, həm də xomeneyizm ideologiyası adlanır) müsəlmanın müsəlmandan yaxın dostu yoxdur. İdeologiyanın birinci şərti budur. Amma molla rejiminin indiki və əvvəlki prezidentlərinin apardıqları siyasətə nəzər yetirdikdə, bu ideologiyanın ayaqlar altında tapdalandığını görmək olar. Hazırkı prezident İbrahim Rəisi və əvvəlki terror başçıları özlərini Xomeneyinin davamçıları kimi cəmiyyətlərinə sırımağa çalıblar. Amma onlar Xomeneyizm ideologiyasının birinci prinsipini - Azərbaycanın torpaqlarını işğal edib, 1 milyondan çox insanı ev-eşiyindən didərgin salmış Ermənistanla geniş əməkdaşlıq münasibətləri qurmaqla pozubdur. Bu gün xomeneyizm ideologiyasının mühüm prinsiplərindən biri də islam inqilabının ixracıdır. Amma burada da fərqli mövqe görünür. Yəməndə, Misirdə, Tunisdə inqilablar baş verəndə molla rejimi elan etdi ki, bu, xomeneyizm ideologiyasına əsasən, İran inqilabının ixracının təntənəsidir. Molla rejimi Suriyaya qarşı münasibətdə isə əks-mövqe sərgilədi. Halbuki oxşar ssenari, oxşar proseslərdir. Deməli, lazım gələndə, siyasətdə xomeneyist də olmaq olar, başqa halda isə xomeneyizm ideologiyasının əleyhinə siyasət yürütmək də olar. Molla rejiminin ali dini rəhbərliyinin apardığı bu yanlış siyasət regionda vəziyyəti gərginləşdirməklə yanaşı, islam dünyasında da parçalanma yaratmağa xidmət edir. Bu nöqteyi-nəzərdən sual yaranır, əgər özünü müsəlman dövləti adlandıran fars-molla rejimi ikili siyasət yeridirsə, o zaman Azərbaycandan uzaq olan digər dövlətlərindən Ermənistana sərt mövqe sərgiləyəcəklərini gözləmək olarmı? İnandırıcı görünümür. Bu baxımdan, fars- molla rejiminin dünya siyasət səhnəsindən silinməsi dünyanın dinclik tapması demək olacaq. Əminəm ki, o gün uzaqda deyil.

***İ.ƏLİYEV***

# Milli Qurtuluş tariximiz: Bir Heydər Əliyev əsəri



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*



**Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də olmur.**

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün ən mühüm tarixi günlərdən biridir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin qələbə ilə başa çatma tarixidir. Bu qələbəni qazanan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan ümummilli lider Heydər Əliyevdir.

1992-ci ildə Naxçıvan Ali Məclisinin sədri olarkən Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırırdı. İqtidar isə onun siyasətini separatçılıq kimi qiymətləndirir və Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini muxtar respublika rəhbərliyinə gətirməyə cəhd edirdi. Bu elə bir dövr idi ki, daşnakların "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı.

1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsi yerli təşkilatlarına məxsus silahlı dəstələr MR Daxili İşlər Nazirliyi binasını, yerli televiziya studiyasını ələ keçirdi. Qiyamçılar xalqa televiziya ilə müraciət edib mövcud hakimiyyət əleyhinə bəyanatlar verdilər.

Lakin bu planlar baş tutmadı. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Silahlılar dövlət idarələrindən qovulub çıxarıldı. Xalq xilas yolunu Heydər Əliyevin ölkəyə rəhbərliyində gördüyü halda iqtidarda olan və olmayan Xalq Cəbhəsi üzvləri, habelə hakimiyyəti itirmiş qüvvələr və onların əlaltıları arasında didişmə, satqınlıq, xəyanət yolu ilə hətta Azərbaycanın müstəqilliyi bahasına hakimiyyəti ələ keçirmək cəhdləri baş alıb gedirdi.

Gəncədə 1993-cü il iyun qiyamı vəziyyəti daha da ağırlaşdırdı. Burada hökumətə tabe olmayan bir qrup zabit "hərbi birlik" yaratmışdır. Onlara Surət Hüseynov rəhbərlik edirdi. 709 saylı hərbi hissə Müdafiə Nazirliyinə tabe olmurdu. İqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi.

İyunun 4-də səhər hərbi qiyamı yatırmaq üçün hökümət Gəncəyə 3 minədək canlı qüvvə, güclü hərbi texnika yeritdi. İki qardaş üz-üzə dayandı. 709 saylı hərbi hissənin kazarmaları dağıdıldı, hərbi təyyarələr havaya qalxıb hava limanını darmadağın etdi. Lakin qiyamçılar daha fəal hərəkət etdilər. Onlar qan tökmək istəməyən qvardiyaçıları şəhərdən çıxarmaq adı altında avtobusa doldurub güllələdilər. Hökumət qüvvələri məğlub edildi. Qiyamçı hərbi hissələr Bakıya doğru yerimiyə, prezidentin və hökumətin istefaya getməsini tələb etməyə başladılar və müqavimətə rast gəlmədən paytaxta yaxlınlaşdılar.




İyunun 14-də Nəvahi yaxınlığında qiyamçılarla hökumət qoşunları üz-üzə dayandı. Danışıqlar nəticəsində qiyamçıları Lökbatan yaxınlığında və Şamaxı yolunun 75 kilometrliyində saxlamaq mümkün oldu. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri, baş nazir, üç güc nazirliyinin rəhbərləri istefaya getməyə məcbur oldular. Ölkənin qabaqcıl adamları, ziyalılar, sadə əməkçilər böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər.

Bununla yanaşı, xalqın sağlam qüvvələrinə arxalanan qurtuluş hərəkatı meydana gəlir və sürətlə genişlənirdi. Bu hərəkat zamanın böyük siyasətçisi Heydər Əliyevin ətrafında toplaşırdı. Ziyalı insanlar dəfələrlə Naxçıvana gedib yenidən böyük siyasətə qayıtmasını xahiş etmişdilər.

1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı-alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə rəsmi müraciət etdi. Ulu öndər elə həmin qəzetdə müraciətə cavab verərək ölkənin xilas üçün öz fikirlərini izah etdi. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişlənirdi.

Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası (YAP) təşkil edildi. AXC-Musavat iqtidarı uzun müddət öz yarıtmaz fəaliyyəti ilə ölkəni parçalanmaq həddinə çatdırmışdı. Vətəndaş müharibəsi üçün zəmin yarandı. Başlanmış bu təhlükəli prosesləri qarşısını ala bilmədiyini dərk edən iqtidar son anda kömək üçün Heydər Əliyevə müraciət etdi.

Azərbaycanın görkəmli oğlu, böyük siyasətçi Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu nəhəng şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə getdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi. Onun Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı.

Ümummilli lider Gəncədə baş verən hadisələrə münasibət bildirərkən demişdi: "Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və qanunu pozmuş bütün adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq qanun qarşısında məsuliyyət daşımalıdırlar".

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.

Dövləti olmayan xalq ölümə məhkumdur. Dövlətçilik xalqın "ölüm, ya olum" məsələsidir.

Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Dövlətimizin qorunub saxlanılması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, qurtuluş deməkdir!

Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi- "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

Bu gün ümummilli liderin layiqli davamçısı olan Prezident İlham Əliyev bu siyasəti dönməz şəkildə uğurla davam etdirir və Azərbaycan dünyada nüfuzlu dövlətlərdən birinə çevrilib. Ölkəmiz həm iqtisadi, həm siyasi, həm mədəni, həm hərbi, həm elmi cəhətdən güclü inkişaf edir. Bütün bunların əsası isə 1993-cü ildə Ümummilli liderimiz tərəfindən qoyulub. Məhz ona görə 15 iyun Qurtuluş Günüdür. Milli Qurtuluş Bayramınız Mübarək!

**Elçin**

**SON SƏHİFƏ**

# SƏS

14 iyun
2023-cü il

## Ərəblərdən Lukakoya 50 milyon avroluq təklif!



Ərəblər sanki ulduz futbolçu "ovuna" çıxıblar. Goal.com saytı yazır ki, "Çelsi"nin icarə əsasında "İnter"də çıxış edən futbolçusu Romelu Lukaku karyerasını Səudiyyə Ərəbistanında davam etdirə bilər. Xəbərdə deyilir ki, belçikalı hücumçu "Əl-Hilal"dan rəsmi təklif alıb. Klub futbolçuya ümumi maaşı 50 milyon avro olan 2 illik müqavilə təklif edib.

## Sağlamlığınıza DİQQƏT EDİN:

### Dondurma seçərkən bunlara diqqət edək!





**"İsti yay günlərinin etiraz edilməyəcək qidalarından biri də dondurmadır. Dondurma qida dəyəri yüksək olan süd məhsuludur. Tərkibində zülal, karbohidrat və yağla yanaşı A, B, C, D, E vitaminləri, kalsium, fosfor, maqnezium, natrium, kalium, dəmir, sink var. Dondurma hazırlanmasında şəkər, müxtəlif meyvələr, şokolad, kakao, fındıq, fıstıq, karamel, qlükoza siropu, bitki yağı, süd yağı, aromatizatorlar, qatılıq artırıcı qida qatqı maddələrindən də istifadə olunur". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.**

Onun sözlərinə görə, təhlükəsiz şəraitdə və normativlərə uyğun hazırlanmayan, saxlanılmayan dondurmalar sağlamlıq üçün ciddi təhlükə yarada bilir: "Dondurma alarkən diqqət edəcəyimiz bəzi məqamları nəzərinizə çatdırmaq istəyirəm.

Sağlam və gigiyenik şərtlərdə pasterize süddən hazırlanmış dondurmaları alın. Süd mikroorqanizmlərin çoxalması üçün çox yaxşı bir mühitdir. Təhlükəsiz və gigiyenik mühitdə hazırlanan dondurmalarda bakteriyalar asanlıqla çoxalır və yediyimiz dondurma sağlamlıq üçün ciddi təhlükə yarada bilir. Bu baxımdan açıq şəkildə və küçədə satılan dondurmalara diqqət edin. Küçədə və açıq şəkildə satılan dondurmaları satan şəxsin əlcək və maskadan istifadə etməsi də vacibdir. Çox vaxt satıcı pula toxunduğu əllə dondurma ikram edir, belə olduğu halda pulda olan zərərli mikroorqanizmlər dondurmaya da yoluxa bilir. Nəticədə, dondurma riskli qidaya çevrilir".

Asim Vəliyev sözlərinə belə davam edib: "Paketlənmiş dondurmaların etiketi oxunmalı, tərkibi və son istifadə tarixinə diqqət edilməlidir. Vaxtı keçmiş və ya keçməyə az qalmış dondurmalar satın alınmamalıdır. Qablaşdırması pozulmuş, dağılmış, qoxusu dəyişmiş dondurmaları satın almayın.

Dondurmaların saxlanıldığı soyuducuların temperaturuna da diqqət olunmalıdır. Süddən hazırlanan dondurmalar uyğun temperaturda və şəraitdə saxlanmazsa, salmonella, listeria monocytogenes, enterobacteriaceae bakteriyaları əmələ gəlir və çoxalır. Dondurma - 18 dərəcə temperaturda saxlanılmalıdır".

*Ayşən Vəli*



## 21 mindən çox şəxsə əlillik təyin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-may aylarında 21,4 min şəxsə əlillik təyin edilib. Nazirlikdən SİA-ya verilən xəbərə görə, onlardan



10,1 mininə ilkin, 11,3 mininə isə təkrar əlillik təyinatı aparılıb. Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin olunub.

Qeyd olunan dövrdə Agentliyin reabilitasiya müəssisələrində 26,5 min şəxsə reabilitasiya xidməti göstərilib, 5,4 min şəxsə 33,2 min reabilitasiya vasitəsi verilib.

## Nikahlar azalır, boşanmalar artır: SƏBƏB?

**Bu ilin ilk dörd ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 15065 nikah və 6920 boşanma halları qeydə alınıb.**



Dövlət Statistika Komitəsindən SİA-ya verilən xəbərə görə, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,6-dan 4,5-ə düşüb, boşanmaların sayı isə 1,5-dən 2,1-ə qədər artıb.

## XƏBƏRDARLIQ:

### Bu gün 36 dərəcə isti olacaq

İyunun 14-də gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam havanın arabir tutulacağı, yarımadanın bəzi yerlərində yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 19-24° isti, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80%, gündüz 50-60 % olacaq.



Azərbaycanın rayonlarında əsasən səhər saatlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23° isti, gündüz 30-35° isti, dağlarda gecə 9-14° isti, gündüz 15-20° isti olacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**